Günəş Şərqdən doğur!

№ 90 (5371), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 25 may 2021-ci il (çərşənbə axşamı)



## Koronavirusdan 7 nəfər vəfat edib

Yoluxanların sayı 200-dən aşağı düşdü

(Səh.7)

### Günün içindən...



## Maliyyə naziri nikbindir

"Ölkəmiz 2020-ci ilin şoklarından mətinlə çıxıb"

"Ötən il də pandemiya şəraiti dünya ölkələrinin iqtisadiyyatına mənfi təsirini davam etdirib, nəticədə iqtisadi fəallıqda həm keyfiyyət, həm də kəmiyyət nöqteyi-nəzərindən azalmalar müşahidə olunub".

Bunu maliyyə naziri Samir Şərifov deyib.

(səh.2)

## Qələbəmizi "Birlikdə yaşadaq!"




"Xarici ölkələrdə yaşayan azərbaycanlıların Marafona qoşulması milli birliyimizə növbəti töhfə olacaq"

(səh.5)

# ABŞ danışıqlarda yardım etməyə hazırdır



## Vaşinqton münaqişənin uzunmüddətli siyasi həllinə tərəfdardır

Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef R.Baydendən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu gəlib.

(səh.2)



# Ərdoğan Şuşaya gələcək ilk xarici lider olacaq




## "Bu səfər beynəlxalq əhəmiyyətli mesajdır"

(səh.8)

### "Həmrəylik bizi daha da ruhlandırdı"

Türkiyə-Azərbaycan və bütövlükdə türk dünyasının media platformasının real məzmun alması sevindiricidir

(səh.4)

### Artıq super güclər Türkiyənin nüfuzu ilə hesablaşır

Türk Şurası şahmat dili ilə desək, "ağlarla oyuna başladı"

(səh.7)

### Milyonlarla vəsait göyə sovrulub

"AZAL o şirkətlərdəndir ki, dövlətin içində həm dövlətin, həm də vətəndaşların maraqlarına xidmət etmir"

(səh.8)

### "Yayda bəzi məhdudiyyətlər ləğv edilə bilər"

TƏBİB rəsmisi deyib ki, qaydalara əməl olunsa virusa daha tez qalib gəlmək mümkündür

(səh.9)

# ABŞ danışıqlarda yardım etməyə hazırdır



## Vaşinqton münaqişənin uzunmüddətli siyasi həllinə tərəfdardır

**Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef R.Baydendən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu gəlib.**

Məktubda deyilir:

"Hörmətli cənab Prezident.

Amerika xalqı adından Sizə və Azərbaycan xalqına 28 May - Respublika Günü münasibətilə səmimi salamlarımı və təbriklərimi çatdırıram.

Bu il Azərbaycanın müstəqilliyinin 1991-ci ildə bərpa edilməsindən 30 il keçir. Bu müddət ərzində Amerika Birləşmiş Ştatları və Azərbaycan Respublikası xalqlarımız arasında əlaqələri gücləndirərək təhlükəsizlik, enerji və demokratik idarəetmə məsələlərində birlikdə çalışıblar.

Amerika Birləşmiş Ştatları ötən il Cənub Qaz Dəhlizinin işə salınması ilə Azərbaycanın Avropanın enerji şaxələndirilməsinə verdiyi töhfələri və bu il Xəzərdəki yatağın Türkmənistanla birgə kəşfiyyatına və işlənməsinə dair imzaladığı Anlaşma Memorandumunu qətiyyətlə dəstəkləyir. Biz Azərbaycana NATO-nun Əfqanıstandakı missiyasına və terrorla mübarizə səylərinə verdiyi 20 illik dəstəyə görə minnətdarıq. ATƏT-in Minsk qrupunun həmsədri olaraq münaqişənin uzunmüddətli siyasi həllinə dair danışıqlarda kömək etməyə sadiq qalırıq.

Münaqişə və koronavirus pandemiyası ilə yadda qalan bir ildən sonra Azərbaycanın bu çətinliklərdən insan hüquqlarına və əsas azadlıqlarına hörmət etməklə və qonşuları ilə sülh içində yaşamaqla daha da firavan bir dövlət kimi çıxmasına ümid edirəm.

Respublika Günündə Azərbaycan xalqına ən xoş arzularımı bildirirəm".



## Maliyyə naziri nikbindir

### "Ölkəmiz 2020-ci ilin şoklarından mətinlə çıxıb"

**"Ötən il də pandemiya şəraiti dünya ölkələrinin iqtisadiyyatına mənfi təsirini davam etdirib, nəticədə iqtisadi fəallıqda həm keyfiyyət, həm də kəmiyyət nöqteyi-nəzərindən azalmalar müşahidə olunub".**

"Report"un xəbərinə görə, bunu maliyyə naziri Samir Şərifov deyib.

Onun sözlərinə görə, pandemiyaya, 44 günlük müharibəyə, qlobal böhrana və neftin qiymətlərinin, neftə tələbatın kəskin aşağı düşməsinə baxmayaraq, Prezident İlham Əliyevin digər sahələrdə olduğu kimi, iqtisadiyyat sahəsində də apardığı uzaqgörən siyasəti və atdığı çevik addımlar nəticəsində ölkəmizdə makroiqtisadi sabitlik qorunub saxlanıb, dövrün çağırışlarına operativ şəkildə adekvat reaksiya verilib.

Nazir qeyd edib ki, operativ tədbirlər sayəsində ölkəmiz 2020-ci ilin şoklarından mətinlə çıxıb, iqtisadiyyatda dərin tənəzzülün qarşısı alınıb, manatın sabitliyi qorunub, hətta bir sıra sahələrdə irəliləyiş əldə edilib.

## Tanınmış hakim koronavirusa yoluxub



**Bakı Ağır Cinayətlər Məhkəməsinin daha bir hakimi koronavirusa yoluxub.**

APA xəbər verir ki, məhkəmənin hakimi Mirzə Xankişiyevin verdiyi koronavirus testi pozitiv çıxıb. Bu səbəbdən hakimin icraatında olan işlər təxirə salınıb.

Onunla eyni tərkibdə olan hakimlərin də işləri təxirə düşüb.

## "Qaragöl olayları İranın da iç üzünü açdı"

### "Cənab Zonnuri vaxtilə mövcud olmuş coğrafiyanı bilmədən danışıb"



**"Zəngəzur dəhlizi ilə bağlı söz-söhbətlər, Qaragöl ətrafında baş verən olaylar təkcə Fransanın, ABŞ-ın və Kanadanın deyil, ən yaxın qonşularımızdan biri sayılan İranın da iç üzünü açıb ortaya qoydu".**

Bu barədə "Şərq"ə Milli Cəbhə Partiyasının sədri Əlisahib Hüseynov deyib. Partiya rəhbəri bildirib ki, sərhədlərin demarkasiyası istiqamətində Azərbaycanın son günlərdə atdığı prinsipial addımlar xeyirxahlarımızı da, bədxahlarımızı da hərəkətə gətirib. İran parlamentinin Milli təhlükəsizlik və xarici siyasət komissiyasının sədri Moctəba Zonnurinin Azərbaycana qarşı qərəzli açıqlama verməsini də məhz bu kontekstdən dəyərləndirməliyik. Erməni KİV-nə açıqlama verən Zonnurinin Ermənistan sərhədinin toxunulmaz qalmalı olduğunu və regionda istənilən sərhəd dəyişikliyinə sərt reaksiya verəcəklərini söyləməsi sıradan bir hadisə deyil. Qonşu ölkənin parlamentarisi bu cür açıqlaması ilə əslində bütün siyasi-diplomatik normaları pozub və konkret ad çəkməsə də, region ölkələrinə meydan oxuyub. Eyni zamanda cənab Zonnurinin yaddaşının qısalığı üzə çıxıb. Adam regionun 30 il bundan əvvəlki, Ermənistanın Azərbaycanın ərazilərini işğal etməsindən əvvəl mövcud olmuş siyasi coğrafiyasını bilmədən danışıb.

Molla-siyasətçilərin diqqətinə çatdırırıq ki, regionda hər hansı ərazi dəyişikliyindən söhbət getmir. Söhbət Azərbaycanın öz sərhədlərini bərpa etməsindən gedir. Qaragöl də Azərbaycanın dünya birliyi tərəfindən müstəqil dövlət kimi tanınmasının ilk günlərindən bizim nəzarətimizdə olub".

**Regionda güclü Azərbaycanın mövcudluğunu həzm edə bilməyənlərin təhdid dili ilə danışmaları absurddur**: "Heç kim məsuliyyətsiz açıqlama verməsin, "ikili standart"lardan çıxış etməsin. 30 il əvvəl sərhədlərimizin toxunulmazlığını pozaraq ərazilərimizi qəsb etmiş Ermənistana bir kəlmə də etirazını bildirməyən bu cür qərəzli qonşularımızın indi regionda istənilən sərhəd dəyişikliyinə sərt reaksiya verəcəklərini bildirməyə mənəvi ixtiyarları yoxdur".

**İsmayıl**



## Prezident Ağdama xüsusi nümayəndə təyin etdi

**Prezident İlham Əliyev Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamla Emin Zamin oğlu Hüseynov Ağdam şəhəri daxil olmaqla Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilib.

## Prezidentin köməkçisi Aİ-yə üzv ölkələrin səfirləri ilə görüşüb



**Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Avropa İttifaqına (Aİ) üzv ölkələrin Azərbaycandakı diplomatik missiyalarının rəhbərləri ilə görüşüb.**

APA-nın xəbərinə görə, bu barədə Almaniyanın Azərbaycandakı səfiri Volfqanq Maniq "Twitter"də bildirib.

Almaniyalı diplomatın sözlərinə görə, Aİ-nin Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Kestutis Yankauskasın dəvəti ilə baş tutan görüşdə regional sülh perspektivləri, Aİ və Azərbaycan arasında əməkdaşlıq sahələri barədə müzakirələr aparılıb.

## Türkiyə Prezidenti: "F-16 təyyarəmizi tezliklə Polşaya göndərəcəyik"

**"Polşanın NATO-nun Türkiyəyə xüsusi təhlükəsizlik tədbirləri çərçivəsində İncirlik Bazamıza dəniz patrul təyyarəsi və hərbi missiya göndərməsini alqışlayırıq. F-16 təyyarəmizi tezliklə Polşaya göndərəcəyik".**



APA-nın yerli bürosunun xəbərinə görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada səfərdə olan Polşa Prezidenti Andji Duda ilə görüşündən sonra keçirilən mətbuat konfransında bildirib.

Türkiyə ilə Polşanın dostluq əlaqələrinin təməlinin 6 əsr öncə qoyulduğunu vurğulayan Prezident Ərdoğan bildirib ki, Türkiyə tarixində ilk dəfə Avropa İttifaqı və NATO üzvü olan bir ölkəyə pilotsuz uçuş aparatı (PUA) ixrac edəcək.

Türkiyənin pilotsuz təyyarə istehsalında dünyanın ən yaxşı 3-4 ölkəsindən biri olduğunu vurğulayan Ərdoğan, "Bu təcrübə, qabiliyyət və imkanları NATO müttəfiqimiz Polşa ilə bölüşməkdən çox məmnunuq, deyə bildirib.

# 4 televiziyanın lisenziyasına xitam verilib

## "Biz istərdik ki, heç bir televiziya, sayt, qəzet bağlanmasın!"

Milli Televiziya və Radio Şurasının qərarları ilə 4 televiziya yayımçısının lisenziyasına xitam verilib. Bu barədə qurumdan bildiriblər. 2021-ci il mayın 24-də Milli Televiziya və Radio Şurasının iclası keçirilib. İclasda televiziya və radio yayımı sahəsində mövcud vəziyyət müzakirə olunub.



"Lider TV və Radio-Azərbaycan" MMC-nin müflisləşməsinin məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi ilə təsdiq olunduğunu nəzərə alaraq Milli Televiziya və Radio Şurası "Lider TV və Radio-Azərbaycan" MMC-yə ümumrespublika televiziya və radio yayımı üçün verilmiş 19 yanvar 2018-ci il tarixli, 169 qeydiyyat nömrəli lisenziyanın qüvvəsinə xitam verilməsi və "Lider TV və Radio-Azərbaycan" MMC-nin televiziya və radio yayımının 01 iyun 2021-ci il tarixdə saat 00:00-dan etibarən dayandırılması barədə qərar qəbul edib. İclasda, həmçinin, "Kaspi Global" MMC-nin (Dalğa TV) peyk televiziya yayımının ardıcıl olaraq 30 gündən artıq müddətdə həyata keçirilmədiyini, "Mingəçevir" Televiziya və Radio Şirkətinin (Mingəçevir TV) və "Alternativ Tele-Radio" MMC-nin (ARB Ulduz TV) regional televiziya yayımının bir il ərzində 60 gün əsassız həyata keçirilmədiyini nəzərə alaraq bu televiziya yayımçılarının lisenziyalarına xitam verilməsi barədə müvafiq qərarlar qəbul edilib.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən tanınmış media eksperti, BDU-nun professoru Qulu Məhərrəmli 4 televiziya yayımçısının lisenziyasına xitam verilməsinə təəssüfləndiyini bildirib:** "Əlbəttə ki, biz bunun çox dərin səbəblərini bilmirik. Adətən bir qayda olaraq bu lisenziyaya uyğunluq məsələsi öndə olur. Yəni əsas kriteriya kimi bu götürülür ki, ona verilmiş lisenziyadan düzgün istifadə edib, ya yox. Ümumiyyətlə, biz istərdik ki, heç bir televiziya, sayt, qəzet bağlanmasın. Amma tutaq ki, biri müflis olursa, bu artıq taleyin hökmüdür və onla barışmaq lazım gəlir. Biz belə hesab edirik ki, ölkədə nə qədər azad media olarsa, məlumatlandırma platforması olarsa, bir o qədər cəmiyyətdə plüralizmin, ictimai düşüncənin inkişafına kömək etmiş olar".

**Aynurə Pənahqızı**

## Ermənistanla sərhəddə daha bir hərbi hissə fəaliyyətə başlayıb



**Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən Ermənistanla dövlət sərhədində zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması, hərbi qulluqçuların maddi-texniki təminatı, sosial şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər davam etdirilir.**

Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat Mərkəzindən bildirilib ki, may ayının 24-də Zəngilan rayonu ərazisində Ermənistanla dövlət sərhədində yeni hərbi hissə - sərhəd komendantlığı xidməti-döyüş fəaliyyətinə başlayıb.

Bununla əlaqədar təşkil olunan mərasimdə DSX rəisinin müavini general-leytenant İlham Mehdiyev çıxış edərək Xidmət rəisi general-polkovnik Elçin Quliyevin təbrikini şəxsi heyətə çatdırıb.

Çıxışda işğaldan azad edilmiş dövlət sərhədlərinin müdafiəsi və mühafizəsi məsələlərinə ali dövləti qayğı sayəsində qısa müddət ərzində bu ərazilərdə zəruri infrastrukturun yaradılması üzrə işlərin sürətlə davam etdirildiyi, hazırkı hərbi hissənin də xidməti-döyüş fəaliyyətinə başlamasının dövlət sərhədlərinin mühafizəsi üçün böyük əhəmiyyət kəsb etməsi bildirilib.

# "İnanmıram ki, Bakı razılıq versin"



Cümşüd Nuriyev: "KTMT-yə qoşulmaq, Türkiyə ilə bütün əlaqələrin kəsilməsi deməkdir"

Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko deyib ki, KTMT-nin qapıları hər kəs, o cümlədən Azərbaycan üçün açıq olmalıdır. Onun sözlərinə görə, üzvlüyü məhdudlaşdıran yeganə şey təşkilatın nizamnaməsi ilə bağlı müəyyən vəziyyət ola bilər.

Nazir müavini bəyan edib ki, KTMT-də iştirak üçün onun üzvləri arasında diplomatik münasibətlər vacibdir: "Belə münasibətlər hələlik Azərbaycanla Ermənistan arasında yoxdur. Onlar bərpa ediləndə - ümid edirik ki, bu, əvvəl-axır baş verəcək - o zaman bu məsələ də bu və ya başqa formada praktik nəzər-nöqtəsində dayana bilər". Azərbaycanın təşkilata üzvlüyü ilə bağlı məsələ son günlər yenidən gündəmə gəlib. Xüsusən vurğulanır ki, Qarabağ problemi tamamilə başa çatandan, regional əməkdaşlıq formalaşandan sonra Azərbaycanın təşkilata üzvlüyü reallaşa bilər. Ya da ən azından bu istiqamətdə müzakirələr başlayar. Görünür, Kremlin də gözləntiləri bu yöndədir.

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə açıqlamasında deyib ki, Azərbaycanın KTMT-yə üzvlüyü əsasən rus mediasında müzakirə olunur.** Professor vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin vaxtında Azərbaycan 5 illik əlavə protokolla bir məsələni gündəmə gətirmişdi. Rəsmi Bakı bəyan etmişdi ki, Azərbaycan qurumda yalnız o zaman daimi qala bilər ki, ölkəmizin ərazi bütövlüyü tam təmin olunsun: "Bilirsiz ki, Azərbaycan vaxtı ilə bu təşkilatda təmsil olunub. Amma rəsmi Bakının "ərazi bütövlüyü" şərtinə əməl olunmadığı üçün Azərbaycan həmin blokdan çıxdı: "Qarabağ müharibəsindən sonra rus mediası bu məsələni yenidən gündəmə gətirir. Təkcə bunu deyil, sərhədlərin və hava məkanlarının birgə qorunması məsələləri də müzakirə predmetidir. O cümlədən vahid iqtisadi məkan söhbəti ortalığa atılıb. Yəni SSRİ-nin bu və digər formada bərpası müşahidə olunur. İnanmıram ki, indiki şəraitdə, ələlxüsus 44 günlük Vətən müharibəsindəki möhtəşəm Zəfərdən sonra Azərbaycan KTMT-yə, yaxud digər qurumlara üzvlüyə razılıq versin. KTMT-yə qoşulmaq, Türkiyə ilə bütün əlaqələrin kəsilməsi deməkdir. Türkiyə hərbi əməkdaşlıq sahəsində ən yaxın partnyorumuz, qardaş dövlətdir. Moskva isə hər vəchlə çalışır ki, Azərbaycanı quruma üzv etsin. Dövlət başçısı bu məsələlərdə kifayət qədər ölçülüb-biçilmiş, uzaqgörən siyasət yeridir. Rusiya rəsmilərinin belə bəyanatları rəsmi Bakının qətiyyətli mövqeyindən dəyişiklik yaratmaz. Mövcud durumda KTMT-yə üzvlük Azərbaycanın siyasi-hərbi və iqtisadi maraqlarına uyğun gəlmir".

**İsmayıl Qocayev**

**Müxalif "Maariflənmiş Ermənistan" Partiyasından olan millət vəkili Gevorq Qorqisyan Rusiya qoşunlarının Zəngəzur bölgəsində yerləşdirilməsini təklif edib.**

O, partiyanın qurultayında bəyan edib ki, Ermənistan Rusiya ilə hərbi əməkdaşlığını genişləndirməli, həmçinin Azərbaycan-Türkiyə risklərinə qarşı Sünikdə Rusiya hərbi kontingenti yerləşdirilməlidir. Partiyanın proqramını təqdim edən Qorqisyan bildirib ki, Ermənistan öz hərbi qüvvələrini bərpa etməli, ordunu yenidən qurmalı, yeni hərbi doktrina qəbul etməli, sərhədlərinin mühafizəsini isə peşəkarlara tapşırmalıdır. Göründüyü kimi erməni müxalifətinin revanşist mövqeyi davam etməkdədir. Amma Zəngəzura rus qoşunlarının gəlməsi, Gümrüdəki kimi bu bölgədə də Rusiyaya məxsus hərbi bazanın yerləşməsi, yaxud 102-ci bazanın bir hissəsinin Zəngəzura köçürülməsi erməni tərəfində daha çox müzakirə olunmaqdadır.




# Erməni müxalifətinin təklifinə ciddi yanaşmaq doğru deyil

## 102-ci bazanın Zəngəzurda yerləşdirilməsi üçün heç bir real tələbat yoxdur

**BAXCP sədrinin müşaviri, politoloq Azər Qasımov "Şərq"ə vurğulayıb ki, Ermənistan müxalifətində səslənən revanşist fikirlərə siyasi gediş kimi baxmaq lazımdır.** Partiya təmsilçisi qeyd edib ki, müxalifətin özünə auditoriya yığmaq üçün populist fikirlərlə gündəmə gəlməsi normal haldır: "Əsas erməni cəmiyyətinin və hakimiyyətin mövqeyidir. 102-ci bazanın Zəngəzura yerləşdirilməsi üçün isə heç bir real tələbat yoxdur. Bazanın Ermənistanda mövcud olmasının səbəbi NATO-nun cənub qanadı olan Türkiyənin 3-cü Ordusuna qarşı dayanmaqdır. Ermənistan özünü əhəmiyyətli ölkə kimi qələmə vermək üçün elə görüntü yaratmaq istəyir ki, guya, Rusiyanın 102-ci bazası onların təhlükəsizliyi üçün Ermənistandadır. Hazırda NATO və Rusiya arasında regional bağlı elə bir gərginlik yoxdur ki, Rusiya öz ordusunun dislokasiyasını sərhəddə yaxın dəyişdirsin. Onsuz da 102-ci bazanın yerləşdiyi Gümrü ilə Zəngəzur arasında uzaq məsafə yoxdur. Bu baxımdan erməni müxalifətinin təkliflərinə ciddi yanaşmaq lazım deyil. Rusiya erməni müxalifətinin çağırışları ilə hərəkət etmir. Bu, Rusiyanın strateji təhlükəsizlik məsələsidir və buna da dövlət başçısı qərar verir".

*A.Qasımov vurğulayıb ki, onsuz da Ermənistan sərhədlərini rus qoşunları qoruyur: "Ermənistan ordusunun dirçəlməsi, "hərbi doktrina" xəyaldan başqa bir şey deyil.* Erməni dövlətinin durumu göz qabağındadır. Ordunu bərpa etmək üçün böyük məbləğdə vəsait lazımdır. Rusiya ən yaxşı halda köhnə silahlarla kömək edə bilər ki, bununla da "yeni hərbi doktrina" yaranmaz. Rusiya Zəngəzur dəhlizinin açılmasında maraqlı olduğu üçün Zəngəzurun təhlükəsizliyində də maraqlıdır. Amma bu təhlükə Azərbaycandan yox, İrandan gəlir. İran Zəngəzur dəhlizinin açılmasından narahatdır və buna qarşı çıxır. Bu baxımdan əgər Rusiya 102-ci bazanı dislokasiya yerini və ya bir hissəsini Zəngəzura gətirəcəksə, bunu İrandan gələn təhlükənin qarşısını almaq üçün edəcək".

**İsmayıl Qocayev**

# "Həmrəylik bizi daha da ruhlandırdı"

## Türkiyə-Azərbaycan və bütövlükdə türk dünyasının media platformasının real məzmun alması sevindiricidir



Dünən Trend İnformasiya Agentliyi və Türkiyənin "Albayrak Media Group"un birgə yaratdığı "TURKİC.World" (Türk Dünyası) adlı ilk rəqəmsal layihənin təqdimatı olub. Təqdimat mərasimində Azərbaycan və Türkiyə media qurumlarının rəhbərləri, Türkiyənin və digər türkdilli ölkələrin səfirləri, diplomatlar, millət vəkilləri və digər qonaqlar iştirak ediblər.

Vurğulanıb ki, ilk dəfə həyata keçirilən layihənin məqsədi türkdilli ölkələrin ortaq tarixi, dini, mədəni və dil dəyərlərini əsas götürərək, türk dünyasının ortaq kommunikasiya platformasını yaratmaq və kontenti birbaşa informasiya mənbəyinə çevirməkdir. Nadir proqram təminatı layihənin daha da təkmilləşməsinə və yaradılan rəqəmsal platformaya digər türkdilli ölkələrin də media qurumlarının qoşulmasına imkan verir. Qeyd olunub ki, rəqəmsal platformanın mobil versiyası da mövcuddur. Mobil versiya gələcəkdə bütün platformanın inkişafının və təkmilləşməsinin əsasını təşkil edəcək. Eyni zamanda, nadir proqram təminatı sayəsində gələcəkdə türkdilli ölkələrin media qurumları öz ölkələri ilə bağlı xəbərləri rus, ingilis və digər dillərdə sayta yerləşdirə biləcəklər. Diqqətə çatdırılıb ki, türkdilli ölkələr arasında əlaqələrin dərinləşməsi həm Prezident İlham Əliyevin, həm Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, həm də digər türkdilli ölkələrin rəhbərlərinin diqqət mərkəzindədir. Təqdimat mərasimində çıxış edən Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov bəyan edib ki, Azərbaycan və Türkiyə bütün məsələlərdə bir yerdədir. İcraçı direktor vurğulayıb ki, 44 günlük Vətən müharibəsində Azərbaycana Türkiyə qədər dəstək olan ölkə olmayıb: "Media nümayəndələri, qardaş ölkənin jurnalistləri dayanmadan döyüş bölgələrindən reportajlar hazırlamaqla haqq səsimizi dünyaya çatdırdılar. Bu həmrəylik bizi daha da ruhlandırdı və bizə əlavə güc verdi. Hərbi, siyasi, iqtisadi, mədəni, təhsil, ticarət sahələrində olduğu kimi, media əlaqələrimizin də daha dərindən və əhatəli inkişafı prioritet hədəfimizdir. Burada ən əsas amil birgə atacağımız addımlardır. Ölkələrimizin rəhbərlərinin verdiyi qərarlarla ötən ilin sentyabr ayında Prezidentin köməkçisi, xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin rəhbərlik etdiyi və bizim də tərkibində olduğumuz nümayəndə heyəti qardaş ölkənin mediası ilə birgə media platforması yaratmaq, hər bir ölkənin sosial mediası vasitəsilə dünyaya daha yaxından tanıdılması məqsədilə İstanbula səfər edib. Səfər çərçivəsində hər iki ölkə arasında ortaq media platforması yaradılması ilə bağlı qərar qəbul edildi. Cəmi bir neçə ay sonra isə Azərbaycanla Türkiyə arasında media səhəsində strateji əməkdaşlıq haqqında memorandumun qəbul edilməsi haqqında qanun layihəsi təsdiqləndi. Bununla da Azərbaycanla Türkiyə arasında birgə media platformasının yaradılması təstiq edildi".

**BDU-nun jurnalistika fakültəsinin professoru Qulu Məhərrəmli mövzu ilə bağlı fikirlərini "Şərq"lə bölüşdü:** "Azərbaycan və Türkiyə cəmiyyətlərinin yaxınlaşması üçün ilərdir ki, müxtəlif addımlar atılırdı. Vahid media resursunun yaranması isə artıq sosial tələbata çevrilib. Əlbəttə, təqdirediləsidir. Fikrimcə, bu əməkdaşlıq Azərbaycan media nümayəndələrinin peşəkarlığının artırılması istiqamətində müstəsna əhəmiyyət kəsb edəcək. Hələlik ilk addımlar atılır. Ümidlərimiz çoxdur. Amma gələcəkdə də eyni sürətlə, eyni templə davam etmək lazımdır".

**"Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli də "Şərq"ə vurğulayıb ki, Türkiyə-Azərbaycan media platformasının yaradılması ilə bağlı bir sıra istiqamətlərdə ciddi tədbirlər görülür.** Baş redaktorun sözlərinə görə, Türkiyə-Azərbaycan və bütövlükdə türk dünyasının media platformasının real məzmun alması sevindiricidir: "Trend İnformasiya Agentliyi və Türkiyənin "Albayrak Media Group"un birgə yaratdığı "TURKİC.World" (Türk Dünyası) adlı ilk rəqəmsal layihənin bir sıra üstünlükləri var. Həmçinin, gələcək üçün daha böyük imkanların yaradılması nəzərdə tutulub. Şübhəsiz ki, bundan sonra da yeni platformalar yaradılacaq. Sevindirici haldır ki, "Türk Dünyası" layihəsi ilk gündən peşəkar, ciddi platforma kimi formalaşır. Qarşıya qoyulan hədəflər də bütövlükdə Türkiyə və Azərbaycanın, eyni zamanda bu iki dövlətin ideya birliyi üzərindən formalaşan türk dünyasının birliyinə, bütövlüyünə xidmət edir. Uğurlu bir addımdır, davamlı olmasını arzulayırıq".

**İsmayıl Qocayev**



# Kremlin məkrli planları görünür

## Rusiya Zəngəzur dəhlizinin açılmasından da yaxşı qazanc əldə etmək istəyir

**Son günlər müzakirə olunan əsas məsələlərdən biri məhz Zəngəzur dəhlizi ilə bağlıdır.**

Prezident İlham Əliyev, demək olar, bütün çıxışlarında bu məqamı xüsusi vurğulayır və bildirir ki, dəhliz hansı yolla olursa-olsun açılacaq: ya könüllü, ya da zorla. Ermənilər isə deyəsən, ikinci variantı istəyirlər. Hər halda bir vaxtlar "Qarabağ Ermənistandır" deyən və sonradan bunun acı, haqlı aqibətini yaşayan Ermənistan Baş naziri Nikol Paşinyan bu dəfə də nələrəsə "nöqtə qoymaq" istəyir. Deməli, yenə o nöqtəni nidaya çevirəcəyik!

**BAXCP sədrinin müşaviri, politoloq Azər Qasımov Zəngəzur dəhlizi barədə "Şərq"ə danışıb:** "Üçtərəfli müqaviləyə görə dəhliz açılmalıdır, bu, aydındır. Tərəflərin razılığı olarsa, buna əməl ediləcək. Məsələnin kökü də buradadır - razılığı olarsa. Olmazsa, məsələ "dalana dirənə", kimsə də buna birbaşa kimsəni məcbur edə bilməz. Bu, məsələnin beynəlxalq hüquq baxımından izahıdır. Amma deyirik ki, nə yolla olursa-olsun dəhliz açılacaq. Necə? Rusiyanın səssizliyi məlumdur. Moskva dəhlizin açılması üçün Ermənistana təzyiq edə bilərmi? Edə bilər. Bəs niyə etmir?! Hətta aşağı tonda ara-sıra bunun erməni tərəfi istəməzsə, mümkün olmadığına işarə edir. Məqsədi nədir?".

**A.Qasımovun fikrincə, Kreml rəhbərliyinin yenə də məkrli planları var:** "Hesab edirəm ki, bu, Rusiyanın oyunudur. Rusiya son hadisələrdə asan yolla, müxtəlif oyunlarla qazanc əldə etmək yolunu tutub. Dəhliz hər halda açılacaq. Sadəcə, Rusiya Zəngəzur dəhlizinin açılmasından da yaxşı qazanc əldə etmək istəyir - həm bizdən, həm Ermənistandan, həm də Türkiyədən. Bu, bizim tərəfimizi tutmaqla erməni hakimiyyətinə təzyiqdən tutmuş, rus sülhməramlılarının Qarabağda uzun müddət qalması, Türkiyənin Rusiya ilə qaynar nöqtələrdəki qarşıdurmasında güzəştlər əldə etməsinə kimi müxtəlif şərtlər ola bilər. Bizə nəticə lazımdır, hansı yolla olursa-olsun. Təbii ki, Rusiyanın oyunlarına qarşı öz oyunumuzu qurmaq şərtilə".

**Kənan**

# KTMT-yə üzv proqnozlaşdırılmır

## Azərbaycan dövləti çox ağıllı və uzaqgörən xarici siyasət kursu həyata keçirir

Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko "İzvestiya" qəzetinə müsahibə verib. Nazir müavini Azərbaycanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzv olması ehtimalına da toxunub.

Diplomat rəsmi Moskvanın bu üzvlüyə isti baxdığını, lakin müəyyən daxili prosedurların razılaşdırılmalı olduğunu əlavə edib. "Özbəkistan formal olaraq Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxmayıb, sadəcə, üzvlüyünü dondurub. Ona görə də qayıtmaq istəyi olsa, Özbəkistan bütün ölkələrdən asan şəkildə üzvlüyünü bərpa edə bilər. Digər ölkələrə, o cümlədən Azərbaycana gəlincə, KTMT-nin qapısı hamı üçün açıq olmalıdır. Üzvlüyə mane ola biləcək yeganə məsələ təşkilatın nizamnaməsinə əsasən, üzv ölkələr arasında diplomatik münasibətlərin vacibliyi ilə bağlıdır. Hələlik, Azərbaycan və Ermənistan arasında belə münasibətlər mövcud deyil. Gec və ya tez bu olacaq və bu baş verdiyi zaman Azərbaycanın üzvlüyü məsələsi praktik həllini tapa bilər".

**Mövzu ilə bağlı Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, politoloq Tural İsmayılov "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycan dövləti çox ağıllı və uzaqgörən xarici siyasət kursu həyata keçirir.** O qeyd edib ki, yaxın vaxtlarda Azərbaycanın KTMT-yə üzv olacağını proqnozlaşdırmır: "Təbii ki, Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko tərəfindən səsləndirilən bu fikirlər birinci dəfə deyil. Əslində Rusiya siyasi elitasına daxil olan bir çox şəxslər bundan əvvəl də Azərbaycanın KTMT-yə üzvlüyü məsələsini qaldırıblar. Lakin qeyd edim ki, Azərbaycan dövləti çox ağıllı və uzaqgörən xarici siyasət kursu həyata keçirir. Ölkəmiz Qoşulmama Hərəkatının siyasi fəaliyyətinin həyata keçməsində müstəsna əhəmiyyətə malikdir. Bu baxımdan düşünürəm ki, indiyə qədər



Azərbaycanın KTMT-yə qoşulması da Azərbaycanın birtərəfli hansısa siyasi və hərbi təşkilatlara marağının olmamasının təzahürüdür. Lakin Rudenko da 44 günlük Vətən müharibəsindəki qələbədən sonra, xüsusən Azərbaycanın təkcə regional deyil, qlobal əhəmiyyətli bir ölkə halına gəldiyini görüb və bu fikirləri səsləndirir".

**T.İsmayılov əlavə edib ki, bütövlükdə gələcəkdə hadisələrin hansı fonda və məcrada gedəcəyini indidən proqnozlaşdırmaq çətindir:** "Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı 44 günlük Vətən müharibəsində üzvü olan Ermənistanın şıltaq və gərəksiz yalvarışlarını, eyni zamanda KTMT-ni hansısa prosesinə cəlb eləmə taktikasına qarşı çox layiqli cavab verdi . Ermənistanı yerindəcə otuzdurmağı bacardı. Amma eyni formada bir daha qeyd edirəm ki, Azərbaycan dövləti balanslı xarici siyasət kursu həyata keçirir və heç bir bloklara qoşulmayan Qoşulmama Hərəkatının sədridir. Düşünürəm ki, gələcəkdə də Qoşulmama Hərəkatında çox önəmli layihələrin və toplantıların keçirilməsinin əsas meyarı Azərbaycan dövləti olacaq. Ona görə bizim hələ ki, yaxın tezlikdə KTMT-yə üzv olacağımızı açığı proqnozlaşdırmıram".

**Aynurə Pənahqızı**

# Erməni hərbçilərin İrana qaçması doğru xəbərdir

## Məlumatın erməni mediasında indi yayılması təsadüfi deyil

"Hraparak" qəzeti məlumat yayıb ki, Ermənistan Silahlı Qüvvələrinin təxminən 160 əsgəri İran ərazisindədir. Əlbəttə ki, söhbət Qarabağ müharibəsi zamanı erməni ordusunun qonşu ölkənin ərazisinə hərbi təcavüzündən getmir. Məsələ ötən il Qarabağdakı 44 günlük müharibə zamanı Azərbaycan Ordusunun zərbələrindən qorxaraq İrana qaçan bir qrup erməni hərbçi ilə bağlıdır. Nəşrin yazdığına əsasən, İranın onları hansı statusda saxladığı məlum deyil.



Qeyd olunub ki, İrana sığınan erməni əsgərləri ilə bağlı məsələ bu yaxınlarda İslam Respublikasının yüksək rütbəli hərbi personalından ibarət nümayəndə heyətinin Ermənistana səfəri zamanı müzakirə edilib. Ermənistan Müdafiə Nazirliyinin sözçüsü Gevorq Altunyan "Hraparak"ın sorğusuna cavabında "Müdafiə Nazirliyinin bu mövzuda şərh vermədiyini" deyib. Nazirliyin İrana qaçan 160 hərbçi barədə məlumatı təkzib etməməsi məlumatın etibarlılığından xəbər verir. 17 mayda Ermənistan Prezidenti Armen Sarkisyan axtarışda olan 5000-dən çox fərarini və 124 məhkumu bağışladı. İrandakı 160 "erməni miqrant"ın bu siyahılara daxil olub olmaması məlum deyil. Xatırladaq ki, Rusiya Xarici işlər naziri Sergey Lavrov da İrəvanın itkin düşmüş əsgərlərinin siyahısını açıqlaya bilmədiyini açıq mətnlə bəyan edib.

### "Erməni tərəfi Zərifin gəlişi öncəsi Azərbaycanı qıcıqlandırmağa çalışır"

İranın Ermənistandakı səfirliyi isə bəyanat yayaraq, 160 erməni hərbçisinin İran ərazisində olması xəbərinin həqiqəti əks etdirmədiyini deyib.

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə bildirib ki, bu cür informasiyalar heç də təsadüfdən yayılmır. Ekspert xatırladıb ki, 44 günlük müharibə zamanı Azərbaycan Ordusu İranla sərhəd ərazilərini düşməndən azad edərkən erməni silahlılarının İrana keçməsini əks etdirən videolar yayılmışdı:** "Güneyli soydaşlarımız bu faktı sübut edən videogörüntülər paylaşmışdılar. Müharibə zamanı bir qrup erməni hərbçinin İrana qaçması doğru xəbərdir. Amma erməni mediasının məhz indi bu cür məlumatı tirajlaması boş yerə deyil. Ermənistan tərəfi belə informasiyalarla İranın hər məqamda İrəvanın yanında olduğunu nümayiş etdirmək istəyir. İranın savaş dövründə ermənilərə dəstəyi hamımıza məlumdur. Lakin dövlətlərarası münasibətlərdə əbədi kin saxlamaq, düşmənçilik etmək qəbuledilməzdir. İranın Xarici işlər naziri Məhəmməd Cavad Zərifin Azərbaycan və Ermənistana səfəri baş tutacaq. XİN rəhbərinin səfəri ərəfəsində bu kimi xəbərlərin ortaya atılması müəyyən məqsədlərə xidmət edir. Erməni tərəfi Zərifin gəlişi öncəsi Azərbaycanı qıcıqlandırmağa çalışır. "İran yanımızdadır, sizin isə düşməninizdir" fikri formalaşdıraraq onsuz da soyuq olan Bakı-Tehran münasibətlərini daha da gərginləşdirmək istəyirlər. Amma rəsmi Bakı öz siyasətini müəyyən qüvvələrin təhriki ilə deyil, düşünülmüş və balanslı xətt üzrə həyata keçirir".

**İsmayıl Qocayev**

## Füzulidə erməni əsgərlərin meyitləri aşkarlanıb

### Şəxsiyyətlərin müəyyənləşdirilməsi üçün məhkəmə-tibb ekspertizası təyin olunacaq



**Dünən Füzuli rayonunda aparılan axtarışlar zamanı Ermənistan ordusunun ikinci Qarabağ müharibəsində məhv edilmiş, əvvəllər itkin düşmüş sayılan daha 4 əsgərinin meyiti aşkarlanıb.**

Bu barədə "Report" "Sputnik Armeniya"ya istinadən xəbər verir.

Meyitlərinin şəxsiyyətlərinin müəyyənləşdirilməsi üçün məhkəmə-tibb ekspertizası təyin olunacaq.

*Qeyd edək ki, Ermənistanın Müdafiə Nazirliyi meyitləri Qarabağda aşkarlanmış, əvvəllər itkin düşmüş əsgərlərin sayını daha açıqlamır. Halbuki əvvəllər bu say mütəmadi olaraq ictimaiyyətə açıqlanırdı.*

## Bakıda baş verən qəzada 3 nəfər ölüb, 6 nəfər yaralanıb



**Mərdəkan yolunda baş verən avtoqəza nəticəsində daxil olan çağırış əsasında hadisə yerinə 5 təcili Tibbi Yardım Briqadası göndərilib.**

Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasından APA-ya verilən məlumata görə, 3 nəfər (1 qadın, 2 kişi) hadisə yerində dünyasını dəyişib, 6 nəfər isə müxtəlif dərəcəli xəsarətlərlə 3 saylı Kliniki Tibbi Mərkəzə aparılıblar.

# Qələbəmizi "Birlikdə yaşadaq!"

## "Xarici ölkələrdə yaşayan azərbaycanlıların Marafona qoşulması milli birliyimizə növbəti töhfə olacaq"

Diasporla İş üzrə Dövlət Komitəsinin və "YAŞAT" Fondunun təşəbbüsü, Azərbaycan Diasporuna Dəstək Fondunun maliyyə dəstəyi və təşkilatçılığı ilə "YAŞAT" Marafonu təşkil ediləcək. Marafonun məqsədi qazilərimizə və şəhidlərimizin ailələrinə dəstək məqsədi ilə dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizi dəmir yumruq kimi bir araya gətirərək "YAŞAT" Fonduna ianə etməyə çağırışdır.

Marafonun şüarı isə "Birlikdə yaşadaq"dır. Marafonda bütün dünya azərbaycanlıları bu şüar altında birləşərək, Qələbəni bizə yaşadanlara və Zəfər tarixini yazanlara dəstək olacaq, onların xoş xatirələrini yada salacaqlar. Marafon müddətində müxtəlif ölkələrdə yaşayan həmvətənlərimizlə və tanınmış şəxslərlə canlı bağlantılar təşkil ediləcək, şəhidlərimizin ailələri, Vətən müharibəsi qəhrəmanları və qazilərimiz çıxış edəcəklər. Eyni zamanda "YAŞAT" Fondu tərəfindən qısa müddətdə görülən işlər barədə hesabat təqdim olunacaq.

**Mühüm təşəbbüslə bağlı "Şərq"ə danışan millət vəkili, YAP-ın İdarə Heyətinin üzvü Cavid Osmanov bildirib ki, Azərbaycan Vətən müharibəsində öz ərazi bütövlüyünü təmin etdi bə parlaq qələbə qazandı.** Deputatın sözlərinə görə, 30 ilə yaxın müddətdə həsrətində olduğumuz yurd-yuvamız Azərbaycan Ordusunun şücaəti və Müzəffər Ali Baş Komandanın qətiyyəti sayəsində yenidən sahiblərinə qayıtdı: "Əlbəttə, istənilən döyüşlərdə itkilər olur. İkinci Qarabağ savaşında, torpaqlarımızın azadlığı uğrunda 3 minə yaxın vətəndaşımız şəhidlik zirvəsinə ucaldı, qazilərimiz oldu. Bəllidir ki, cənab Prezidentin yürütdüyü siyasətin mərkəzində insan amili dayanır. Xüsusən, dövlət tərəfindən şəhid ailələrinə, Qarabağ müharibəsinin qazilərinə böyük diqqət və qayğı göstərilir. Bu insanları sözün həqiqi mənasında daim yaşatmaq, onlara dəstək olmaq, xalqımızın milli birliyini yenidən özündə ehtiva etmək üçün "YAŞAT" Fondu təsis olundu. Müharibə gedən dövrdə hamımız, Azərbaycanda, ölkədən kənarda yaşayan soydaşlarımız Ali Baş Komandanımızın ətrafında sıx birləşdik, vəhdət olduq. Bu amil Vətən müharibəsindəki qələbəmizin təməllərindən biri oldu".

*Parlament üzvü qeyd edib ki, həmrəyliyimizi davam etdirmək üçün "YAŞAT" Marafonunda hər birimizin ürəkdən iştirakı olduqca vacibdir:* "Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar imkanları daxilində şəhid ailələrinə və qazilərimizə yardım göstəriblər. Zərrə şübhə yoxdur ki, soydaşlarımızın dəstəyi bundan sonra da davam edəcək. Xarici ölkələrdə yaşayan azərbaycanlıların Marafona qoşulması milli birliyimizə növbəti töhfə olacaq. Milli Birlik fonunda daha çox soydaşımız şəhid ailəsinə və qazilərimizə yardım etmək imkanı qazanacaqlar. Bununla qazilərimizi narahat edən bəzi problemlər də həllini tapmış olacaq".




**Millət vəkili Elman Məmmədov "YAŞAT" Marafonunun keçirilməsini dəyərləndirib:** "Hər birimiz "YAŞAT" Fondu yaradıldığı gündən bu prosesi yüksək qiymətləndirdik. Hamı gücü çatan səviyyədə fonda maliyyə yardımını göndərir və bu proses yenə də davam edir.

Təbii ki, fondun yaradılması çox nəcib bir təşəbbüsdür və olduqca lazımlı idi. "YAŞAT" Fondu hər zaman kifayət qədər güclü və müəyyən imkanlara malik olmalıdır.

Fondun yarandığı dövrdən bu günə qədər fəaliyyəti göz qabağındadır. Şəhid ailələrimizə, qazilərimizə, ehtiyacı olan hərbçilərimizə köməklik edilir, yüksək səviyyədə təbliğat işləri aparılır.

"YAŞAT" Marafonunun da keçirilməsi olduqca müsbət dəyərləndirilməlidir. Çünki Marafonun təşkili xeyirxah məqsədlərə xidmət edir.

Müxtəlif ölkələrdə yaşayan soydaşlarımız "YAŞAT" Fonduna maliyyə dəstəyi göstərəcəklər. Nəticədə həmin maliyyə vəsaiti şəhid ailələri və qazilərimizə böyük dəstək olacaq".

**Keçmiş millət vəkili Flora Qasımova sözügedən təşəbbüs barədə "Şərq"ə danışıb:** "44 günlük hərbi əməliyyatlar bizim üçün Vətən müharibəsi idi. Həmin savaşda əsgər və zabitlərimiz xalqın dəstəyini hiss edərək, ölümü gözə aldılar və torpaqlarımızı azad etdilər. Biz müharibə dövründəki həmrəyliyimizi, birliyimizi indi də göstərməliyik. Bu, borcumuzdur. Ölimizdən gələni etməliyik, o cümlədən xaricdə yaşayan soydaşlarımızın qayğısı, diqqəti şəhid və qazilərimizə hörmətin ən bariz nümunəsidir. İndi onların bizim dəstəyimizə ehtiyacları var. Bu mənada qaldırılan təşəbbüsü yüksək qiymətləndirirəm".

**İsmayıl Qocayev, Yeganə Bayramova**

# “Ən böyük təşəkkürlər cənab Prezidentə düşür”

## BMT-nin Başlıbel faciəsi ilə bağlı yaydığı sənəd Kəlbəcər şəhidlərinin ruhuna sakitlik gətirəcək



Başlıbel faciəsi BMT-nin sənədi kimi yayılıb. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin məlumatında qeyd olunur. Məlumatda bildirilir ki, Azərbaycan Respublikasının Xarici işlər naziri Ceyhun Bayramovun BMT-nin baş katibi Antonio Quterreşə ünvanlandığı, 1993-cü ilin aprel ayında Ermənistanın təcavüzkar siyasəti nəticəsində Kəlbəcərin Başlıbel kəndində Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisinin məqsədyönlü şəkildə qətlə yetirməsi ilə bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən hazırda aparılan cinayət işinin ilkin nəticələrinə dair məktubu BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının sənədi kimi yayılıb.

C.Bayramovun məktubunda Azərbaycanın azad edilmiş ərazilərində ölkəmizə qarşı Ermənistan tərəfindən 30 ilə yaxın həyata keçirilən təcavüz siyasəti nəticəsində bu ölkənin silahlı qüvvələrinin törətdiyi müharibə cinayətləri və insanlığa qarşı cinayətlərə dair hazırda, münaqişə sonrası dövrdə Azərbaycan Respublikasının aidiyyəti qurumlarının əlavə məlumatlar əldə etdiyi barədə məlumat verir.

Bu xüsusda Baş katibin diqqətinə çatdırılır ki, aparılan araşdırmalar zamanı digər rayonlar ilə yanaşı, Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Kəlbəcər rayonunun Başlıbel kəndinin mülki əhalisinə qarşı xüsusi amansızlıq və qəddarlığın nümayiş etdirildiyi müəyyən olunub. Kənd sakinlərinin kütləvi şəkildə vəhşicəsinə qətlə yetirildiyi, girov götürülən şəxslərə isə işgəncələr verildiyi, həmçinin həmin kəndin tamamilə dağıdıldığı və yer üzündən silindiyi bildirilir.

Belə ki, 3 aprel 1993-cü il tarixində Ermənistan silahlı qüvvələrinin Başlıbel kəndinə silahlı hücum edərək, kütləvi surətdə kənd sakinlərinə məxsus evləri qarət etdiyi və tamamilə yandırdığı, kəndi tərk edə bilməyən 62 nəfərin təxminən 3 km aralıda, kəndin ən hündür hissəsində yerləşən ”Portda” adlanan dağ relyefli ərazidəki təbii mağaralara sığındığı qeyd edilib. Törətdiyi vəhşiliklə kifayətlənməyən Ermənistan silahlı qüvvələrinin 18 aprel 1993-cü il tarixdə silahsız mülki şəxslərin öz doğma kəndlərində qayalara sığındığı yerləri aşkar edərək, köməksiz vəziyyətdə qalmış mülki şəxsləri qətlə yetirdiyi və aralarında 1 uşaq və 1 yeniyetmə olmaqla 12 nəfəri qəsdən öldürdüyü barədə məlumat verilir.



“Faciəni törədənlərin şəxsiyyətinin müəyyənləşdirilərək cəzalandırılmasına ölkəmiz nail olmalıdır”

Başlıbel faciəsinin, Ermənistanın Azərbaycana qarşı təcavüzü çərçivəsində Ermənistan tərəfindən törədilən çoxsaylı müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərdən yalnız biri olduğu qeyd edilir və ədalətin təmin olunması və müharibə sonrası barışıq üçün bütün bu cinayətlərin hərtərəfli araşdırılmasının vacib olduğu vurğulanır.

Qeyd edək ki, Azərbaycan XİN-in yaydığı məlumat ictimaiyyətdə müsbət reaksiya doğurub. Başlıbel faciəsinin ağrılarını, ağır yükünü 30 ildə sinəsində gəzdirən, onu unutdurmağa qoymayanlar bu hadisəni Azərbaycan diplomatiyasının, ümumilikdə dövlətimizin böyük uğuru hesab edirlər.

**Başlıbel kənd sakini, həmin faciədən bəhs edən ”Qanlı kaha” kitabının müəllifi, araşdırmaçı-jurnalist Elxan Salahov məlum sənədin BMT tərəfindən qəbul olunmasının Başlıbelin timsalında təkcə Kəlbəcər şəhidlərinin deyil, bütün şəhidlərimizin narahat ruhlarına sakitlik, hüzur gətirəcəyinə əmindir.** Sözügedən sənədin BMT tərəfindən qəbul edilməsində ”Qanlı kaha” kitabının əhəmiyyəti də böyük olub. ***Elxan Salahov isə ”Şərq”ə açıqlamasında qeyd edib ki, bu iş bütünlüklə Ali Baş Komandanın şəxsi nəzarəti altındadır və ən böyük təşəkkürlər cənab Prezidentə düşür:***

- Mən sadəcə vasitəçi oldum, Başlıbel qətliamını incəliklərinə qədər özündə əks etdirən ”Qanlı kaha” kitabı ilə, təqdimatlar, görüşlər və yazışmalarla. Qarşıda bizi daha bir neçə xoş xəbərlər gözləyir, mərhələ-mərhələ, addım-addım davam edirik.

Allah dövlətimizə yar və yardımçı olsun!

E.Salahov bildirib ki, Başlıbel faciəsi ilə bağlı BMT-nin internet səhifəsində məlumat yayılması müsbət addımdır:

- İllərlə bu faciəni tanıtdırmaq, tarixi həqiqətlərin təbliği üçün dayanmadan çalışdıq. Xüsusilə ”Qanlı kaha” kitabı çap olunduqdan sonra Bakıda, Sumqayıtda, Ağcabədidə təqdimat mərasimləri, hərbi hissələrdə görüşlər keçirdik. Lakin biz bununla kifayətlənməməliyik. Faciəni törədənlərin şəxsiyyətinin müəyyənləşdirilərək cəzalandırılmasına ölkəmiz nail olmalıdır. Biz dayanmadan üzərimizə düşən və bacardığımız işi gördük və bu istiqamətdə çalışmaqda davam edirik.

*Xatırladaq ki, Başlıbel faciəsi zamanı bu ucqar dağ kəndində 18 nəfər qətlə yetirilib, 14 nəfər girov götürülüb, 1 nəfər isə itkin düşüb. Hazırda həmin hadisələrdən bəhs edən ”Qanlı kaha” kitabının motivləri əsasında sənədli-bədii filmin çəkilişlərinə hazırlıq gedir. Bu, Başlıbel faciəsinin daha geniş auditoriyalarda tanıdılmasına böyük töhfə olacaq.*

**Məlahət Rzayeva**

## Cüzi kompromisə də getmək olmaz

### “KTMT-yə suveren hüquq və ərazi bütövlüyümüzü sübut etmək zamanıdır”



**“Olduqca həssas bir məqamda qalib ölkənin cüzi kompromisə getməsi belə, qarşı tərəflərə cəsarətsizlik kimi görünəcək, təxribat addımlarını davam etdirmələri üçün zəmin yaradacaq”.**

**Bu sözləri hərbi-siyasi ekspert Həşim Səhrablı deyib.**

O, məsələ ilə bağlı daha ətraflı ”Şərq”ə danışıb: ”İndi siyasi və hərbi əhəmiyyəti öz tərəfdaş ölkələrini belə sakitləşdirmək iqtidarında və ya niyyətində olmayan KTMT-yə suveren hüquq və ərazi bütövlüyümüzü sübut etmək zamanıdır. Bu həm də Orta Asiyada Türkiyə faktorundan sonra nümunə və ümid olacaq yeni mexanizmin formalaşması deməkdir. Əks halda, bu güc və nüfuz qarşıdurmasında biz məğlub, KTMT-nin əsas ölkələri isə qazanan, nüfuzlanan tərəf olacaq. Ya bu qarşıdurma, hərbi olmayıb, siyasi tərəfi ilə məhdudlaşsa belə, heç başladılmamalı idi, ya da başladılıbsa, hər şeyi gözə alıb qətiyyət və qalibiyyətlə bitirilməlidir”.

**Kənan**

## Zəngəzur dəhlizinin açılmasına əngəl olan qüvvələr var

### Məqsəd Rusiya və Türkiyəni regiondan çıxarmaqdır

**“Zəngəzurda Azərbaycan-Ermənistan sərhədində olan məsələlərə ABŞ Dövlət Departamentinin, Fransanın və başqalarının münasibəti tamamilə səhv, beynəlxalq hüquqdan, ədalət hissindən uzaq olub, sırf geosiyasi və geoiqtisadi maraqları əks etdirir”.**

*Bu sözləri millət vəkili Musa Qasımlı deyib.*

*Deputat ”Şərq”ə açıqlamasında bildirib ki, region ölkələri indiki məqamda qətiyyət göstərməlidir:* ”Başlıca məqsəd yenidən gərginlik yaradaraq Azərbaycan, Türkiyə, Rusiya, Ermənistan, İran, Gürcüstan və digər dövlətlərin maraqlarına cavab verən Zəngəzur dəhlizinin açılmasına mane olmaqdır. Dəhlizin açılmasından sonra regionda yeni şərait yaranacağından narahat olanlar Ermənistanı əllərində vasitə kimi saxlamağa, Rusiya və Türkiyəni regiondan çıxarmağa çalışırlar. Ancaq region dövlətlərində siyasi realizm hakim olarsa, min kilometrlərlə uzaqdan gəlib regionu yenidən qarışdırmaq istəyənlərin cəhdləri uğurlu ola bilərmi?”.

**Kənan**

# Danışıqlarda incə, zərif məqamlara toxunulacaq

## Məhəmməd Zərifinin Bakıya sərhəd olaylarından sonra gəlməsi maraqlı hadisədir

İranın Xarici işlər naziri Məhəmməd Cavad Zərif bu gün Azərbaycana səfər edəcək. İranın Azərbaycandakı səfirliyindən bildirilib ki, səfər İran İslam Respublikası və Azərbaycan Respublikası rəsmiləri arasında davamlı məsləhətləşmələr çərçivəsində baş tutacaq. İranlı nazir Azərbaycan Respublikasının yüksək vəzifəli şəxsləri ilə görüşəcək:

“Bu səfərin əsas məqsədi ikitərəfli münasibətlərdəki son inkişafları və ən vacib regional və beynəlxalq məsələləri müzakirə etmək və fikir mübadiləsi aparmaqdır”.

Məlumdur ki, bir aydan da az müddətdə İranda prezident seçkisi keçiriləcək. Bu baxımdan İran-Ermənistan və İran-Azərbaycan münasibətlərinin gələcəyi Zərifi narahat etməməlidir.



**Səfərin əsas məqsədi ilə bağlı ”Şərq”ə danışan politoloq Sədrəddin Soltan bildirib ki, M.C.Zərif Azərbaycana sərhəddəki məlum olaylar baş verdikdən sonra gəlir:** ”Hesab edirəm ki, səfər zamanı Azərbaycan-İran sərhəddindəki hadisə müzakirə olunacaq və təhlükəsizlik məsələsi Cavad Zərifin diqqətinə çatdırılacaq. Çünki Azərbaycanın İranla sərhəddi bir növ narkotik qaçaqmalçılıq mənbəyinə çevrilib. İran Azərbaycan sərhədlərini davamlı olaraq narkotik maddələrlə ”atəşə tutur”. Digər məsələ Zəngəzur dəhlizidir.

Çünki bu dəhliz olduqca regional və beynəlxalq əhəmiyyətə malikdir. Çox güman ki, Azərbaycan-Ermənistan sərhəddindəki demorkasiya və delimitasiya məsələsi də müzakirə olunacaq.

İran iki ölkə arasındakı sərhəddə baş verənlərdən narahat olduğunu bildirir və dəfələrlə bəyan edir ki, regionda sərhədlərin dəyişdirilməsinə qarşıdır. Yəqin ki, İran belə açıqlama ilə öz aləmində Ermənistanı müdafiə edir. Lakin bu məsələnin həlli Azərbaycanın sərhəd bütövlüyünün təmin olunması deməkdir”.

**S.Soltan qeyd edib ki, səfər çərçivəsində iki ölkə arasında post-pandemiya dövrünə hazırlıq da müzakirə edilə bilər:**

”Atom nüvə proqramına görə, İrana tətbiq olunan sanksiyalar götürüldükdən sonra İranın iqtisadi əlaqələri genişlənəcək və yeni fəaliyyət istiqaməti olacaq. Ola bilsin ki, İran perspektivdə Azərbaycan vasitəsilə neft və qaz ixrac etsin. Hesab edirəm ki, səfər zamanı regional və iki ölkə arasındakı əlaqələrin inkişafından söhbət gedəcək”.

**Yeganə Bayramova**

# Artıq super güclər Türkiyənin nüfuzu ilə hesablaşır

## Türk Şurası şahmat dili ilə desək, "ağlarla oyuna başladı"

**Rusiya Xarici işlər naziri Sergey Lavrov Moskvanın türkdilli ölkələrlə daha sıx əməkdaşlıq etmək istədiyini bildirib. XİN rəhbəri vurğulayıb ki, Rusiya Türk Şurasına qoşulmağa hazırdır: "Başa düşürük, bu birlik türkdilli ölkələr üçün yaradılıb, amma bizim də içimizdə tatar, altay, çuvaş, başqırd, yakut kimi türk xalqları var. Razılıq olsa, qatılmağımızda bir problem olmamalıdır".**



**"Rusiyanın quruma üzv olmaq istəyinin arxasında iki niyyətdən biri dayanır"**

Lavrov bu təklifi 2019-cu ilin iyul ayında da səsləndirmişdi. Bu dəfə Lavrov Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının dövlətlərarası bir təşkilat olduğunu xatırladaraq üzvlük üçün dominant əhalinin türk olmasının problem olmadığını bəyan edib. Bəzi politoloqlar Rusiyanın bu təkliflə türkün gücünü etiraf etmiş olduğunu dilə gətirirlər. Digər qisim isə hesab edir ki, bu "təşəbbüs" daha çox türkləri nəzarətdən kənarda saxlamamaq cəhdinə, onların arasında olub, yeni nifaqlar yaratmaq istəyinə daha çox bənzəyir. Son dövrlər Türk Şurası regional təsir gücünə malik təşkilata çevrilməkdədir. Şuraya daxil olan dövlətlərin əksəriyyəti yeraltı təbii sərvətlərlə zəngindir. Türkiyənin bu ölkələrlə yaxınlaşmasını Rusiya özü üçün təhdid hesab edə bilər. Həmçinin, Türk Şurasına daxil olan dövlətlər beynəlxalq nəqliyyat qovşağının üzərində yerləşir. Təşkilatın güclənməsi regionda yeni gücün formalaşması deməkdir ki, bu da əsas strateji bölgələrin Rusiya tərəfindən itirilməsinə gətirib çıxarır. Bir məqamı da vurğulayaq ki, Rusiyada yaşayan türkdillilərin sayı 35 milyondan çoxdur. Bu günə qədər onlar Rusiya Federasiyası daxilində subyektlər kimi fəaliyyət göstəriblər. Zaman-zaman Rusiyadakı bəzi siyasi elitadan Türk Birliyinin qurulmasına qarşı sərt reaksiyaların şahidi olmuşuq. Eyni zamanda Rusiyadakı siyasi müxalifətin bəzi nümayəndələri də türk dövlətlərinin birliyindən narahat olduqlarını bu və ya digər formada dilə gətiriblər.

**Sabiq millət vəkili, Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev "Şərq"ə bildirib ki, son yaşananlardan sonra türk dövlətləri dünya gündəmindədir.** Partiya rəhbərinin sözlərinə görə, artıq super güclər türk dünyası ilə hesablaşmaq məcburiyyətini hiss edirlər: "Türk Şurasının genişlənməsi və qüdrətlənməsi bu qurumu Avropa Birliyi kimi təşkilatlardan daha da güclü edəcək. Türkiyənin dünya gücünə çevrildiyi etiraf olunur. Azərbaycan isə ən azından bölgə gücü sayılır. Bütün bu reallıqlar onu göstərir ki, gələcək inteqrasiyada, digər türk dövlətləri bir araya gəldikdən sonra çox nəhəng iqtisadi ev formalaşacaq. Bu həm də özünümüdafiə blokunun təşkil olunması deməkdir. Qələmə aldığım "Yeni dünya düzənində Azərbaycanın yeri və rolu" kitabında Turan adlı bir blokdan bəhs etmişdim. Hesab edirdim ki, dünyanın qəlbi deyilən bir yerdə mütləq Türk Evi yaranmalıdır".

**F.Quliyev vurğulayıb ki, dünənə qədər Türkiyənin üzərinə gələnlər, indi qardaş ölkənin ayağına gəlmək məcburiyyətində qalıblar:** "Türkiyə ilə zor dilində danışmağın mümkünsüzlüyünü görənlər Ankara hökuməti ilə yaxınlaşmaqda maraqlı görünürlər. Əlbəttə, burada iki niyyətin olması gözləniləndir. Məqsədlərdən biri türk birliyinə daxil olaraq onu içəridən parçalamaq və qurumda təşəbbüskar olaraq önə çıxmaqdır. Digər məqsəd isə öz iqtisadiyyatını və gələcəyini müəyyənləşdirmək üçün həqiqi dostluq və əməkdaşlıq qurmaqdır. Ancaq düşünürəm ki, vurğuladığım iki seçim bunu təklif edən Rusiyanın özünə belə tam aydın deyil. Moskva son və həqiqi istəyinin nədən ibarət olduğuna qərar verə bilmir. Məncə, ilk etapda təşəbbüskarlığı öz üzərlərinə almaq üçün cəhdlər edəcək. Əgər görsələr ki, bunu edə bilmirlər, o halda əməkdaşlıq mərhələsinə keçəcəklər. Əsas məqam odur ki, Türk Şurası aparıcı qurum kimi şahmat dili ilə desək, "ağlarla oyuna başladı".

**İsmayıl Qocayev**

## Mirmahmud Mirəlioğlunun müalicəsi davam edir

### Partiya sədrinin vəziyyəti nə ağırdır, nə də yaxşı



**Klassik Xalq Cəbhəsi Partiyasının sədri, keçmiş deputat Mirmahmud Mirəlioğlu ailə üzvləri ilə birgə koronavirusa yoluxub.**

Onun müalicəsini Heydər Əliyev Fondu öz üzərinə götürüb.

**KXCP-nin sədr müavini Xəzər Teyyublu "Şərq"ə Mirmahmud bəyin son sağlıq durumu haqda bunları söyləyib:** "Ev şəraitində müalicə olunur. Ona yüksək səviyyəli dəstək verilir. Analizlər götürülüb. Deməzdim ki, vəziyyəti ağırdır, ya da yaxşıdır. Müalicədən də bir müddət keçməlidir. Dərmanlar təsirini həmin dəqiqə göstərmir. Hazırda sistemlər qoşulur. Həm özü, həm də ailə üzvləri müalicə alır".

**Samirə**

## Koronavirusdan 7 nəfər vəfat edib

### Yoluxanların sayı 200-dən aşağı düşdü



**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 156 yeni yoluxma faktı qeydə alınıb, 424 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 7 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 332 610 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 321 132 nəfər müalicə olunaraq sağalıb, 4 867 nəfər vəfat edib. 6611 nəfər aktiv xəstə sayını təşkil edib.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 5 546, bu günə qədər isə ümumilikdə 3 458 790 test icra olunub.*



Türkiyəli jurnalist: "Rusların Qarabağa girməsinə icazə verməməli idik"

# "Son zərbəni biz endirəcəyik"

## "İkinci Qarabağ müharibəsi qardaşlığın sözdə yox, həm də əməldə olduğunu təsdiqlədi"

**İkinci Qarabağ müharibəsi həm də bir sınaq idi: dostun kim, düşmənin kim olduğunu müəyyənləşdirən sınaq. Bir çox müttəfiqlərimiz bu sınaqdan uğurla çıxdılar.**

Qardaş Türkiyənin adını isə xüsusi qeyd etməliyik. Rəsmi Ankara bizə, az qala, hər gün mənəvi və diplomatik dəstək verdi. Eyni zamanda sıravi vətəndaşlar da özlərinin sosial media hesablarındakı yazıları, fotoları ilə yanımızda olduqlarını göstərdilər. Türkiyəli həmkarlarımız isə öz sahələrində - informasiya cəbhələrində silahlarını, yəni qələmlərini, kameralarını bir an belə olsun yerə qoymadılar. Onlar hadisələri obyektiv təhlil etdilər və dünya ictimaiyyətinin diqqətinə çatdırdılar.

**"Şərq"in budəfəki həmsöhbəti türkiyəli jurnalist Aysel Sadakdır.**

O, media nümayəndələrinin fəaliyyətini belə qiymətləndirib: "Haqq savaşınız barədə xəbərləri yerli və Azərbaycan KİV-dən alırdıq. Türkiyəli jurnalistlərin birbaşa hadisə yerindən informasiya verməleri çox təqdirəlayiqdir. Əlbəttə, Azərbaycana ezam olunan jurnalistlərin əksəriyyəti regionu yaxşı tanıyırlar. Bu da onların daha səmərəli fəaliyyəti ilə nəticələndi. Yəni faktın həm dünəni, həm bu günü, həm də sabahı auditoriyaya çatdırıldı. Müharibə dövründə Türkiyə mediası çox yaxşı çalışdı. Çətinlik həmin hadisələri, yəni torpaqlarınızın işğalını görməyənlərə xəbərlərin çatdırılması idi. Bu mənada türk jurnalistlərin həmin dövrün şahidləri və azərbaycanlı həmkarları ilə müsahibələri çox effektli ola bilərdi. Azərbaycan və Türkiyə mediası arasında əməkdaşlıq gələcəkdə deyil, məhz indidən başlamalıdır. Əlbəttə, Ermənistan haqlı mübarizəmizə kölgə salmaq üçün bütün vasitələrdən, o cümlədən dezinformasiyalardan istifadə etməli idi və etdi. Etiraf etməliyik ki, türklər bu sahədə gecikirlər. Qələbə qazanmağımıza rəğmən, lobbiçilik fəaliyyətimiz qənaətbəxş deyildi. Amma son zərbəni biz endirəcəyik".

**Jurnalist, həmçinin bildirib ki, indiyədək olduğu kimi bundan sonra da Azərbaycan və Türkiyə düşmənlərə qarşı birgə mübarizə aparmalıdır:** "Qarabağ türklərindir. İlk gündən etibarən Qarabağ mübarizəsi bütün türklərin qəlbində başlamışdı. Tarixi qələbəmizdə müəyyən çatışmazlıqlar olsa da, otuz illik yuxumuz gerçəkləşdi. Bu, danılmazdır. Qarabağ illərdir Azərbaycanın qəlbinə sancılan xəncər idi. Biz o xəncəri çıxarıb atdıq. Var olsun Azərbaycan milləti, Azərbaycan gəncliyi! Yeri gəlmişkən, deyim ki, mən Azərbaycanın müstəqillik uğrunda savaşında orada olmuşam. Mübariz ruhu gözlərimlə görmüşəm, cəbhələrdə yatmışam. O vaxt iyirmi yaşım var idi. İllər sonra hər dəfə Azərbaycana gələndə həmin milli ruhun tədricən öldüyü məni narahat edirdi. Lakin budəfəki müharibədə 8 yaşındakı uşağın belə, milli ruha sahib olduğunu görüb sevindim, heyrətləndim. Sanki bu, bir oyanış oldu. Fikrimcə, bütün torpaqlarımızı azad edə bilərdik. Biz bu gücə sahibik. Rusların Qarabağa girməsinə icazə verməməli idik. Rusdan türkə dost olmaz! Türkiyə dövlətinin Qarabağ məsələsindəki mövqeyi hətta daxildəki müxalifətin də ürəyindən oldu. Türkiyədə Azərbaycan əsilli 8 milyona yaxın insan var. Qarabağ müharibəsi göstərdi ki, Türkiyənin yerli əhalisi daim qardaş Azərbaycanın yanında, arxasındadır. Bu, bizim gələcəyə daha inamlı baxmağımızı təmin edir. İkinci Qarabağ müharibəsi qardaşlığın sözdə yox, həm də əməldə olduğunu təsdiqlədi. Yaşasın Azərbaycan-Türkiyə qardaşlığı, var olsun millətimiz!".

**Kənan Novruzov**

# Ərdoğan Şuşaya gələcək ilk xarici lider olacaq




## "Bu səfər beynəlxalq əhəmiyyətli mesajdır"

## "Deməli, bundan sonra da kimsə revanşist ideyalara qapılmamalıdır"

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan yaxın həftələrdə Azərbaycana gələcək. Bu barədə Türkiyənin Mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy məlumat verib. O bildirib ki, bu günlərdə Azərbaycan və Türkiyə Prezidentləri səviyyəsində, işğaldan azad edilmiş Azərbaycan ərazilərində yenidənqurma və restavrasiya işlərinin necə planlaşdırılması haqqında müzakirələr gedir.

"Bu torpaqlarda infrastruktur və yenidənqurma işləri ilə yanaşı mədəni, tarixi əhəmiyyətə malik abidələrin, arxeoloji yerlərin restavrasiyası da ön plandadır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qarşıdakı həftələrdə Azərbaycana edəcəyi səfərdən sonra, bizim də Qarabağın yenidən qurulması və restavrasiyası ilə bağlı fəaliyyətimiz intensivləşəcək. Ən qısa müddətdə qeyd etdiyim mədəni, tarixi abidələrin bərpası, qorunması bölgədə turizmin inkişafına da təkan verəcək" - deyə, nazir əlavə edib.

**AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli "Şərq"ə açıqlamasında səfərin əhəmiyyətini yüksək qiymətləndirib:**

"Ərdoğan Şuşaya gələcək ilk xarici ölkə lideri olacaq. Bu, Türkiyənin regionun əsas iştirakçılarından, başlıca söz sahiblərindən biri olduğunu göstərir. Niyə Putin, Makron, Ruhani yox, məhz Ərdoğan?! Bax, bu sualın cavabı həm də beynəlxalq əhəmiyyətli mesajdır. Deməli, bundan sonra da kimsə revanşist ideyalara qapılmamalıdır".

**Kənan**



# Geri dönüşü yoxdur

## Ermənistan razılaşmalara əməl etmək məcburiyyətində qalıb

**"Ermənistan Baş naziri vəzifəsini icra edən Nikol Paşinyanın Azərbaycanla razılaşma sənədinin İrəvanın maraqlarına tam cavab verir deməsi ziddiyyətli açıqlamadır".**

Bunu "Şərq"ə açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib. Siyasi şərhçi bildirib ki, Azərbaycan hansı sənədə imza atsa da, bir qarış ərazisini güzəştə getməyəcək: "Üçtərəfli komissiya fəaliyyət göstərir və bu komissiya sərhədlərin müəyyənləşdirilməsini 11 yanvar razılaşmalarını həyata keçirəcək. Artıq Ermənistan razılaşmalara əməl etmək məcburiyyətində qalıb. Bunun əksi Azərbaycanın yeni təzyiqləri ilə üzləşməkdir. Ermənistan tərəfində sərhəddə təxribat yaradaraq seçkini təxirə salmaq cəhdlərinin olması ehtimalı var idi. Rusiya Prezidenti Vladimir Putinin ötən gün Azərbaycan və Ermənistan liderlərinə zəngi əldə olunan razılaşmaların həyata keçirilməsinin vacibliyini vurğulamaq üçün edilmişdi. Ermənistan tərəfinə konkret təlimatlar verilib. Artıq prosesin geri dönüşünə imkan verilməyəcək. Yeni sənədin bir hissəsi elan edilib. Nəticədə Paşinyana qarşı müxalifət partiyaları ciddi şəkildə siyasi təqibə başlayıblar. Göründüyü kimi seçkilər çətin və mürəkkəb situasiyada keçəcək".

**İsmayıl**

# Milyonlarla vəsait göyə sovrulub

## "AZAL o şirkətlərdəndir ki, dövlətin içində həm dövlətin, həm də vətəndaşların maraqlarına xidmət etmir"

Koronavirus pandemiyasının mənfi təsirinin azaldılması məqsədilə həyati vacib sərnişindaşıma və digər sərnişindaşıma fəaliyyəti göstərən hüquqi şəxslərə ayrılan vəsaitlərin təhlili ilə bəzi təşkilatlar tərəfindən bu vəsaitlərin kənar məqsədlərə istifadəsi hallarına yol verilib. Dəstək məqsədilə ayrılmış büdcə vəsaitlərindən vergi borcları, həmçinin kreditor borcların ödənilməsi və s. məqsədlərlə istifadə olunduğu, həmçinin, pandemiya ilə mübarizəyə xidmət etməyən istiqamətə də vəsaitin yönəldildiyi müəyyən edilib.

Bu, "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinə və Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin icrasına dair illik hesabata Hesablama Palatasının rəyində əks olunub.

Rəydə qeyd olunub ki, "Azərbaycan Hava Yolları" QSC-yə (AZAL) nəzərdə tutulmuş 230,9 mln. manatın 215,5 mln. manatı AZAL-a, 15 mln. manatı isə Milli Aviasiya Akademiyasına ödənilib.

"Koronavirus (COVID-19) pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar "Azərbaycan Hava Yolları" QSC-yə sərnişindaşıma sahəsi üzrə 215,5 mln. manat məbləğində maliyyə dəstəyinin 69,6 mln. manatı və ya 32,3 faizi əməkhaqqı və ona bərabər tutulan ödənişlərə, DSMF və işsizlikdən sığorta fonduna ayırmalara yönəldilib", - rəydə deyilir. Rəyə əsasən, ayrılmış vəsaitlərin 44,9 mln. manatı və ya 20,8 faizi kreditor borclarının ödənilməsinə, 20,4 mln. manatı və ya 9,5 faizi əsaslı təmir xərclərinə, 19,5 mln. manatı və ya 9,1 faizi ehtiyat aviahissələrin alınmasına, 15,9 mln. manatı və ya 7,4 faizi vergi öhdəliklərinin ödənilməsinə, 10,5 mln. manatı və ya 4,9 faizi yanacaq və sürtkü materiallarının alınmasına, 7,2 mln. manatı və ya 3,3 faizi sərnişin təyyarəsinin lizinq ödənişlərinə (4 E190 HG), 6,9 mln manatı və ya 3,2 faizi istismar xərclərinə, 5,1 mln. manatı və ya 2,4 faizi trenajorların alınmasına (pandemiya şəraitində bunun zəruriliyinə ehtiyacın olmasının əsaslılığı real deyildir), 4,2 mln. manatı və ya 2 faizi zəmanətsiz alınmış kreditlərə görə faiz borcunun ödənilməsinə, 3,4 mln. manatı və ya 1,6 faizi IATA ("Clearing House" klirinq mərkəzi), 4,6 mln. manatı və ya 2,2 faizi rabitə, nəqliyyat və kommunal xərclərinə, 3,1 mln. manatı və ya 1,4 faizi isə əməliyyat fəaliyyəti ilə bağlı digər xərclərə yönəldilib.



**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən iqtisadçı-ekspert Nazim Baydəmirli vurğulayıb ki, ümumiyyətlə, belə şirkətlər bir müddət öncə hətta ölkə başçısının da tənqidinə tuş gəlmişdi:** "Qeyd olunmuşdu ki, AZAL niyə dövlət qarşısında öhdəlikləri yerinə yetirmir? Bütün Azərbaycan vətəndaşları bilirlər ki, AZAL-ın xidmətləri keyfiyyət baxımından aşağı olmağına baxmayaraq, qiymətləri yüksəkdir. Təbii ki, bunun ilk öncə səbəbi mövcud inhisarçılıqdır. Digər səbəb isə başqa daşıma şirkətlərinin Azərbaycana buraxılmamasıdır. AZAL o şirkətlərdəndir ki, dövlətin içində həm dövlətin, həm də vətəndaşların maraqlarına xidmət etmir. Hətta dediyim kimi, digər şirkətləri də bazardan çıxardır. Eyni zamanda AZAL bölgələrdə bir sıra beynəlxalq aeroportlar tikərək layihələr ortalığa gətirirdi. Lakin sonda məlum olurdu ki, istifadə edənlərin sayı çox aşağıdır. Məsələn, Zaqatalada illərdir ki, tikilmiş aeroportdan indiyədək cəmi 80 nəfər sərnişin istifadə edib. Yəni on milyonlarla büdcə vəsaiti səmərəsiz istifadə olunub. O baxımdan Azərbaycan kimi ərazisi geniş olmayan ölkədə əslində bu tipli aeroportların tikilməsi strateji olaraq səhv addım idi. Bu da deyək ki, artıq dırnaqarası bəhrəsini verir".

**Aynurə Pənahqızı**

# Bakı bu dəfə Tbilisi ilə ciddi danışmalı olacaq

## Gürcüstandakı azərbaycanlılara qarşı yaşananlar ciddi hadisəyə çevrilir




**Gürcüstanın paytaxtı Tbilisidə növbəti insident baş verib. Hadisə Tbilisinin mərkəzi Abanotubani rayonunda yaşanıb. İnsident zamanı 31 yaşlı yerli azərbaycanlı qətlə yetirilib.**

Hadisə zamanı bir neçə azərbaycanlı gənc soyuq silahla xəsarət alıb. Onlar xəstəxanaya çatdırılıb və reanimasiyaya yerləşdiriliblər.

Yayılan məlumatlara əsasən, dava azərbaycanlı və kürd əsilli gənclər arasında olub. Hadisənin digər detalları hələ məlum deyil.

**Baş verənləri "Şərq"ə şərh edən "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu bildirib ki, növbəti dəfə belə bir hal yaşansa, Azərbaycan tərəfi ciddi danışıqlar aparmalı olacaq:** "Keçən dəfəki hadisədən sonra rəsmi Tbilisi açıqlama verdi ki, hadisəni araşdıracaqlar və cinayətkarlar tutulacaq. Sonra barışıq həyata keçirildi. Amma ikinci insidentin də şahidi olduq. Düzdür, azərbaycanlılarla başqa millətin nümayəndələri arasında toqquşma baş verib. Artıq bu olayların təsadüfi olmadığına dair bizdə fikir formalaşır. Vəziyyətin bu həddə çatmasında müəyyən maraqlı qüvvələr var. Həmin qüvvələr Ermənistanda və Rusiyada var. Çünki Gürcüstanla Azərbaycan əlaqələrinin pozulmasını istəyirlər. Lakin prosesla məşğul olmaq bizim işimiz deyil. Gürcüstan dövləti araşdırmalıdır. Müəyyən qüvvələr iki ölkə arasındakı münasibətlərin pozulmasında maraqlıdırlar və buna görə də insident yaradırlar. Onlar müəyyənləşdirilib cəzalandırılmalıdır. Mixael Saakaşvili prezident olduğu illərdə bu cür təxribatların qarşısı alınırdı, erməni separatçıları həbs olunurdu. Sonrakı hakimiyyət isə onları azad etdi, indi nə işlə məşğul olduqları bəlli deyil".

E.Şahinoğlunun sözlərinə görə, Gürcüstan rəhbərliyi anlamalıdır ki, azərbaycanlılara qarşı bu cür hallar artarsa, bu, birbaşa Gürcüstan-Azərbaycan münasibətlərinə təsir edəcək: "Əlbəttə, bunu istəmərik, çünki Gürcüstan bizim əməkdaşımızdır və strateji əlaqələrimiz var. Lakin bu əlaqələr ilk növbədə Gürcüstanın maraqlarına cavab verir. Azərbaycanın investisiyaları, boru xətləri, nəql etdiyimiz qaz Gürcüstana lazımdır. Ona görə də diqqətli olmalı və belə insidentlərin qarşısını almalıdırlar. Üçüncü dəfə belə hadisə baş versə, rəsmi Tbilisi ilə ciddi danışmalı olacağıq".

**Yeganə Bayramova**



## "Yayda bəzi məhdudiyyətlər ləğv edilə bilər"

### TƏBİB rəsmisi deyib ki, qaydalara əməl olunsa virusa daha tez qalib gəlmək mümkündür

**"Ölkəmizdə vaksinasiya prosesinin uğurla aparılması nəticəsində əvvəlki dövrlərlə müqayisədə koronavirus infeksiyasının yayılmasında kritik vəziyyət yaşanmadı. Əgər proses belə davam edərsə, yay aylarında bəzi məhdudiyyətlər aradan qaldırıla bilər".**

"Xəzərxəbər" xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın üzvü, TƏBİB-in işçi qrupun rəhbəri Vasif Əliyev bildirib.

Onun sözlərinə görə, gündən-günə koronavirusa yoluxanların sayı azalır, sağalanların sayı isə artır. Bu göstəricilərə həm vaksinasiyanın uğurla davam etdirilməsi, həm də vətəndaşların verilən tövsiyələrə əməl etmələri nəticəsində nail olunub.

Vasif Əliyev deyib ki, insanlar bundan sonra peyvənd olunmaqda daha maraqlı olmalıdırlar. Çünki pandemiyanın qarşısını ala biləcək ən təsirli üsul vaksinasiyadır. Peyvəndləmə ilə virusun yayılma zənciri qırılır və yoluxuculuq azalır.

TƏBİB rəsmisi əlavə edib ki, vətəndaşlar nəzərdə tutulan qaydalara əməl etsələr virusa daha tez qalib gəlmək mümkün olar.



## Sənəd məqsədli şəkildə yayılıb

### Koronavirusla bağlı Azərbaycanda vəziyyət faciəli deyil

**Koronavirusdan hər 100 min nəfərə düşən ölüm sayına görə Azərbaycanın guya ilk sıralarda olduğu göstərilən sənəd yayılıb.**

Sənədin ABŞ Vaşinqton Universiteti Tibb İnstitutunun apardığı tədqiqatlar əsasında hazırlandığı bildirilir. Sənəddə bir sıra ölkələrdə koronavirusdan ölüm sayları əhalinin hər 100 min nəfərinə düşən nisbətdə göstərilib. Maraqlıdır ki, siyahıda Azərbaycanın adı ilk sıradadır. Koronavirusdan ölüm halları Azərbaycanda ümumilikdə 672,7 qeyd edilib, bu isə əhalinin hər 100 min nəfəri ilə nisbətdə ən böyük rəqəm hesab edilir. Sənədin hansı qurum, hansı təşkilat tərəfindən yayıldığı dəqiq deyil. Qeyd edilənlər nə dərəcədə həqiqətə uyğundur?

**Məsələ ilə bağlı "Şərq"ə açıqlama verən həkim Vaqif Qarayev yayılan məlumatın düzgün olmadığını deyib:**

- Hesab edirəm ki, bu, düzgün məlumat deyil. Bizdə katostrafik vəziyyət yoxdur. O sənədə də inanmıram.

V.Qarayev belə bir sənədin məqsədli şəkildə yayıla biləcəyini də istisna etmədi.

**Məlahət**

# Xarici şirkətlər Ermənistandan qaçır

Ermənistanın iqtisadiyyat üzrə eksperti Akop Koçaryan düşmən ölkənin vəziyyətinin olduqca ağır olduğunu etiraf edib. Ekspert bildirib ki, Ermənistanda qeyri-sabit vəziyyət pik nöqtədə qalmaqda davam edir. Hətta dövlətçiliyi itirmək təhlükəsi böyükdür. Onun sözlərinə görə, müharibənin bitməsindən 6 ay keçsə də, ölkədə problemlər və risklər azalmır:

"Ən çox qorxduğumuz şeylər baş verir. Xarici investorlar ölkədəki gərgin vəziyyətə görə Ermənistan iqtisadiyyatına sərmayə yatırmaqdan imtina edirlər. Bu azmış kimi Ermənistandan investorlar qaçır". Koçaryan əlavə edib ki, Ermənistan tənəzzülün bir addımlığındadır: "Rəsmi məlumata görə, cari ilin üç ayı ərzində xarici rezidentlər Ermənistanın bank sistemindən 125,5 mlrd. dram çıxarıblar. Söhbət 241 milyon dollardan gedir".



## Mənasız israr təhlükəlidir, sonu fəlakətdir

**Düşmən ölkədəki gərgin vəziyyəti "Şərq"ə dəyərləndirən siyasi şərhçi Anar İmanov bildirib ki, müharibədə darmadağın edilmiş, onsuz da zəif olan iqtisadiyyatı tamamilə çökmüş Ermənistan tənəzzül dövrünü yaşamaqdadır.** Analitikin sözlərinə görə, vəziyyət olduqca kritikdir və hər an sosial partlayış mümkündür: "Çox sayda erməni normal gələcək görmür və sərhədlər açılan kimi ölkəni birdəfəlik tərk etməyi düşünür. Bu acı reallığı iqtidar da, müxalifət də çox yaxşı görür, dərk edir, amma vəziyyətin düzəlməsi üçün heç bir addım atılmır. Hələlik ölkədə hakimiyyət uğrunda savaş gedir. Paşinyan və Koçaryan cəbhəsi bir-birini qırır, pisləyir, söyür, alçaldırlar. Müharibədəki məğlubiyyəti bir tərəf digərinə yükləməyə çalışır. Halbuki, Ermənistanda iqtidar da, müxalifət də əsl günahkardır. Ermənilərin indiki vəziyyətə düşməsində 30 ilə yaxın müddətdə onlara dəstək verən, işğala haqq qazandıran havadarları da suçludur".

*A.İmanov bildirib ki, əgər Ermənistan normal dövlət olsaydı, mina xəritələrini Azərbaycana qeyd-şərtsiz təhvil verər və sülh münasibətləri qurmaqda maraqlı olduğunu göstərərdi:* "Ermənistana bu şans verilmişdi. Amma biz əksini gördük. Erməni tərəfi xəritələri verməməklə qalmadı, hələ üstəlik Azərbaycan ərazilərinə qanunsuz hərbi birləşmələr, terrorçular göndərdi. İndiyə qədər də sərhədlərin müəyyən olunmasında min cür problem yaradırlar. Belə gedişlə Ermənistan hökumətinin absurd və əsassız iddialarından vaz keçməsi gözlənilmir. Erməni hökuməti anlamır ki, mənasız israr çox təhlükəlidir və sonu fəlakətdir. Ölkənin gələcəyini görməyən, məhvə doğru iri addımlarla addımlayan hakimiyyət əhalinin qarşısında yalnız bir seçim qoyur - qaçmaq, ölkəni tərk etmək".

**İsmayıl Qocayev**

# Məscidlərimizdən hər zaman azan səsi gələcək



*"Azərbaycan üçün İslam irsinə sahib çıxmaq, onu qorumaq, mühafizə etmək bu gün də prioritetdir"*

Milli Məclisin deputatı Könül Nurullayeva Misir mətbuatında Qarabağda Azərbaycanın İslam irsini bərpa siyasətindən yazıb. "Azərbaycan Qarabağda dağıdılmış məscidləri bərpa edir" başlıqlı ərəb və ingilisdilli məqalədə qeyd olunur ki, Azərbaycan İslam dünyasının bir parçası kimi hər zaman İslam dəyərlərinin mühafizəsini ən yüksək səviyyədə təmin edir.

2020-ci il noyabrın 10-da Qarabağda Azərbaycanın böyük qələbəsi ilə başa çatan müharibədən sonra islam irsinin qorunmasında da artıq yeni mərhələ başlayır. Bu, bərpa mərhələsidir: "Çünki 30 il ərzində Azərbaycanın işğal olunmuş ərazilərində islam irsinə qarşı ciddi vandallıq aktları törədilib. İllər boyu Ermənistan bu irsi məhv etmək siyasəti yeridib. Lakin Azərbaycanlıların Qarabağa qayıdışı ilə rifah, dağıdılan irsin bərpası başladı".

Prezident İlham Əliyevin mayın 12-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşada Müqəddəs Ramazan Bayramı ərəfəsində yeni məscidin təməlini qoyduğunu diqqətə çatdıran K. Nurullayeva yazır ki, qədim Azərbaycan torpağı olan Şuşada vaxtı ilə 17



məscid olub və ermənilər işğal zamanı onların hamısını dağıdıb. Üç məscid yarıdağıdılmış vəziyyətdə idi - Yuxarı və Aşağı Gövhərağa (1768-1769-cu illərdə inşa edilən bu məscid də işğal dövründə erməni vandalizminin qurbanı olmuşdu) və Saatlı məscidləri. Onların da təmiri ilə bağlı artıq göstəriş verilib: "Şuşadakı məscidlərin bərpasını Azərbaycanda və dünyada humanitar və xeyriyyə layihələrinin ən fəal iştirakçısı olan Heydər Əliyev Fondu həyata keçirir. Artıq Şuşaya hakim olan bina məscid binası olacaqdır. Xüsusi qeyd etməliyəm ki, bütün dağıdılan məscidlər işğal dövründə azərbaycanlıların qəlbində ucaldılmışdır. 5 il öncə - torpaqlarımız işğaldan azad edilməzdən əvvəl Azərbaycan Prezidenti Şuşa şəhərindəki Yuxarı Gövhərağa məscidinin bənzərini Cəbrayıl rayonunun Cocuq Mərcanlı qəsəbəsində inşa etdirdi. O vaxt məscidin açılışında cənab İlham Əliyev də bildirmişdi ki, gün gələcək biz Şuşada məscidləri bərpa edəcəyik və yeni məscidlər tikiləcək."

Bundan sonra məscidlərdən hər zaman azan səsi gələcəyini bildirən millət vəkili həmçinin vurğulayıb ki, Qarabağda sözün həqiqi mənasında tarixi anlar yaşanmaqdadır: "İlk dəfə 30 ildən sonra Şuşada bayram namazı qılındı. Məhz bayram ərəfəsində qədim Şuşa şəhərində yeni məscidin təməlqoyma mərasiminin keçirilməsi isə həqiqətən böyük tarixi və rəmzi xarakter daşıyır. Bu, həm də onu göstərir ki, Azərbaycan üçün İslam irsinə sahib çıxmaq, onu qorumaq, mühafizə etmək hər zaman olduğu kimi, bu gün də prioritetdir. Təsadüfi deyil ki, Azərbaycan əsgəri azad etdiyi ərazilərdə ilk olaraq namaz qıldı, dağıdılmış olsa belə, məscidlərdə azan səsləri ucaldı. Bu, azərbaycanlıların 30 illik arzusu idi. Bundan sonra biz Qarabağada əbədi yaşacağıq və bundan sonra məscidlərdən hər zaman azan səsi gələcək. Bundan sonra sülh dini olan İslamın dəyərli irsi Qarabağda əbədi qorunacaq."

*Qeyd edək ki, məqalə Əlcəzair, Misir və İraqın nüfuzlu informasiya portallarında ərəb və ingilis dillərində dərc olunmuşdur.*

**Aygün**

## Koordinasiya vacibdir

### Türkiyə ilə media əməkdaşlığı daimi və strateji xarakter daşımalıdır



**"Azərbaycan-Türkiyə media əməkdaşlığı ilk növbədə Azərbaycan üçün strateji önəm daşıyır".**

Bunu "Şərq"ə açıqlamasında Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Araz Aslanlı deyib. Ekspert bildirib ki, Azərbaycan gənc dövlətdir və xüsusilə beynəlxalq informasiya mübarizəsində təcrübəsi zəifdir: "Mütəmadi olaraq erməni lobbisinin və Azərbaycana zərər vermək istəyən güclərin xüsusi təbliğati hücumuna məruz qalırıq. Müharibə dövründə bu sahədə dəstəyə daha çox ehtiyacı var idi. Türkiyə mediası daha təcrübəli və peşəkardır. Xüsusilə silahlı münaqişə bölgələrindən reportaj hazırlamaqla bağlı böyük təcrübəyə sahibdirlər. Amma bu media əməkdaşlığı sadəcə bir dövr üçün, ya da bir təhlükəyə qarşı olmamalıdır. Daimi və strateji xarakter daşımalı, ümumiyyətlə, informasiya almaq azadlığına töhfə verəcək şəkildə olmalıdır. Burada söhbət medianın idarə olunmasından getmir. Əlbəttə, media azad olmalıdır. Amma zəruri hallarda cəmiyyətin və dünyadakı hər kəsin informasiya almaq azadlığına töhfə vermək üçün medianın koordinasiyası zəruri ola bilər".

**İsmayıl**

## Nazir açıqladı

### Rusiya İngiltərə üçün təhlükə yaradır

**Birləşmiş Krallığın Müdafiə naziri Ben Vallac İngiltərəyə bir nömrəli təhlükə yaradan dövlətin adını açıqlayıb.**

"Şərq" TASS-a istinadən xəbər verir ki, o, bu barədə yerli "The Sunday telegraph" qəzetinə müsahibəsində danışıb.

Nazir bu dövlətin Rusiya olduğunu deyib. O, həmçinin bildirib ki, İngiltərə gərginliyi azaltmağa çalışsa da, bu, hələlik nəticə verməyib. Vallac Rusiya sualtı gəmilərinin İngiltərə sahillərində üzməsindən narahatlığını ifadə edib.

**Kənan**

# Koçaryanın iddiaları ilə gücü üst-üstə düşmür

*"Paşinyan daha böyük səslə qalib gələcək, Azərbaycan və Türkiyə ilə əlaqələri bərpa edəcək"*

Ermənistanın ikinci prezidenti, "Ermənistan" alyansının rəhbəri Robert Koçaryan hakimiyyət orqanları vasitəsilə tərəfdarlarına qarşı təzyiqlərin olduğunu bildirib. Sabiq dövlət başçısı qeyd edib ki, hüquq-mühafizə orqanları onun tərəfdarlarına qarşı təzyiqlər göstərir. "Artıq bir neçə gündür, hüquq-mühafizə orqanları əməkdaşlarına mənim silahdaşlarıma təzyiq göstərməsi barədə xəbərlər daxil olur.

Mən məğlubiyyət səhifəsini bağlamaq üçün milli həmrəyliyə görə barəmdəki qanunsuzluğu və haqsızlığı bağışlaya bilərəm, amma xəbərdarlıq etmək istəyirəm ki, komandamın üzvlərinin təqib olunması məqsədilə heç bir qondarma iş unudulmayacaq və bağışlanmayacaq. İnandırıram ki, qanunsuzluq edən istənilən vəzifəli şəxs tezliklə qanun qarşısında cavab verəcək" - deyə Robert Koçaryan bildirib. Məlum olduğu kimi, iyunun 20-də Ermənistanda növbədənkənar parlament seçkiləri keçirilməlidir. Seçkilərdə bir neçə əsas qüvvə iştirak edəcək ki, bunlardan biri də hazırda Baş nazir Nikol Paşinyandır. Lakin müxalifət, o cümlədən keçmiş "Qarabağ klanı" bütün imkanları ilə buna mane olmaq istəyir. Beləliklə, hazırda Ermənistan daxilindəki siyasi vəziyyət olduqca xaotik bir həddə çatıb.

*BDU-nun professoru, politoloq Əlimusa İbrahimov rəsmi İrəvandakı mövcud durumla bağlı "Şərq"in suallarını cavablandırıb:*

**- Koçaryanın ona və komandasına qarşı təzyiqlərlə bağlı iddiasını necə qiymətləndirirsiniz?**

- Artıq Ermənistan mətbuatında oxşar xəbərlər yayılıb. Amma bu, cəfəngdir və gözlənilən idi. Məsələn, nə Koçaryanın, nə də Sarkisyanın hakimiyyətə gəlmək imkanları var. Ümumiyyətlə, Paşinyan onları siyasi səhnədən uzaqlaşdırmaq niyyətindədir. Müxalifət isə istəyir ki, seçkilər Paşinyanın nəzarəti altında keçirilməsin və beləliklə, onların özlərinin imkanları artsın. İndi müxalifət Ermənistandakı və xaricdəki qüvvələrin diqqətini çəkmək, özünü gündəmdə saxlamaq məqsədilə bu vasitədən istifadə edir. Yəni Koçaryanın iddiaları sadəcə şayiədir, real deyil. Fikrimcə, bu günlərdə Sarkisyan da analoji iddia ilə çıxış edəcək.



**- Niyə düşünürsünüz ki, seçkilərdə müxalifətin qalib gəlmək şansları azdır?**

- Koçaryan mayın 9-da mitinq keçirdi. Həmin aksiyada cəmi 3-4 min adamın iştirak etməsi göstərir ki, Koçaryanın imkanları azdır. Ümumiyyətlə, "Qarabağ klanı"nın reytinqi çox deyil. Bunu həm Paşinyan, həm də müxalifət bilir. Və reallıq ondan ibarətdir ki, Paşinyan daha ciddi rəqibləri ola-ola Koçaryana qarşı belə vasitələrlə mübarizə aparmaq istəməz.

**- Seçkilərin keçirilməməsi ilə bağlı iddialara münasibətiniz necədir?**

- Bunu "Maariflənən Ermənistan" Partiyasının rəhbəri Edmon Marukyan deyib. O, guya, Azərbaycan hərbçilərinin Ermənistan sərhədlərini pozmasını əsas gətirir. Lakin bu belə deyil. Ermənistanda on minlik rus qoşunları olduğu halda necə olur ki, illərdir seçkilər keçirilir. Yəni bu iddia da real deyil. Ermənistanda növbədənkənar seçkilərin qarşısını ala biləcək ikinci qüvvə yoxdur.

**- Bəs seçkilərin nəticəsi barədə proqnozlarınız necədir?**

- Paşinyan qalib gələcək. Özü də əvvəlkindən daha çox səslə. Amma seçkilərdən sonra siyasətin necə qurması sual altındadır. Böyük ehtimalla Ermənistan iqtisadiyyatını dirçəltmək məqsədilə Azərbaycan və Türkiyə ilə əlaqələri bərpa edəcək.

**Kənan Novruzov**

## İctimai və dövlət maraqlarının müdafiəsi

# Toylara başlamaq olar...

## Ancaq qaydalara əməl etmək şərtdir

Deyirlər, toy olacaq! Artıq il yarımdır ki, gəlinlər duvaqda, bəylər qalstukda, ata-anaların da əli qoynunda qalıb. Səbəb məlumdur. Və tam əsaslıdır. Koronavirus pandemiyası dünyanı lərzəyə saldığı bir vaxtda insanların kütləvi toplaşmalarının qarşısının alınması ən düzgün qərar idi. Məlum məsələdir; Azərbaycan cəmiyyəti üçün çətin idi, əsrlərlə möhkəmlənmiş adət-ənənələrdən kənar qalmaq. Bir müddət əhali yeni qaydalara uyğunlaşa da bilmədi. Kimlərsə, gizli-aşkar yas mərasimləri, toy-nişan məclisləri təşkil etdilər. Hüquq-mühafizə orqanları məlumat aldıqları zaman bu cür mərasimləri dayandırdılar, təşkilatçılar cərimələndi. İndi də qadağaları pozmağa meyl göstərənlər olur.



Qanun hər şeydən üstündür və kimsə cərimələrə, inzibati cəzalara görə etiraz etmir. Hamı başa düşür ki, pandemiya dövründə, koronavirusdan itkilər olduğu bir vaxtda karantin qaydalarına əməl etmək vacibdir. Dövlət bu qaydaları ilk növbədə vətəndaşların sağlığını, təhlükəsizliyini düşünərək tətbiq edir. Yoxsa ki, şadlıq saraylarının, mərasim evlərinin fəaliyyət göstərməsinin dövlətə zərəri yox, əksinə xeyri var. Ən azından vergi ödəyiciləri üzərlərinə düşən vəzifəni yerinə yetirir. Şadlıq saraylarında, əyləncə mərkəzlərində, mərasim evlərində çalışanlar, toy və yas industriyası adlanan bu geniş sahənin çalışanları maddi gəlirlərini təmin edirlər. Bundan əlbəttə, dövlətə xeyir dəyir. Lakin vurğuladığımız kimi, Azərbaycan dövləti üçün prioritet olan ilk növbədə vətəndaşların sağlamlığı və təhlükəsizliyidir. Hazırda isə vəziyyət müsbətə doğru dəyişməkdədir. Koronavirusa yoluxma sayında nəzərəçarpan azalma, vəfat edənlərin sayının azalması, xəstəlikdən sağalanların sayının yoluxma sayını üstələməsi, ən başlıcası da ölkə üzrə geniş peyvəndləmə kampaniyasının aparılması karantin qaydalarında yumşalmalara gediləcəyi ümidini xeyli artırır. Yumşalmaların ilk növbədə insanları məhz havaların istiləşməsiylə əlaqədar daha çox narahat edən məsələyə - açıq havada tibbi maskalardan istifadənin zəruriliyinin qaldırılmasına şamil ediləcəyi gözlənilir. Və əlbəttə ki, əhalinin uzun müddətdir səbirsizliklə gözlədiyi toy məclislərinin keçirilməsinə icazə verilməsi.

### İlk açıqlama TƏBİB-dən gəldi

**TƏBİB-in şöbə müdiri Yaqut Qarayeva AZTV-yə verdiyi müsahibədə karantinlə bağlı bəzi qərarların elan olunacağını bildirib.** Şöbə müdiri qeyd edib ki, açıq havada maskadan istifadə ləğv edilə bilər. Lakin onu da deyib ki, bu, həkim olaraq onun şəxsi düşüncələridir: "Azərbaycanda açıq havada maskadan istifadənin ləğvi ilə bağlı qərar yaxın vaxtlarda elan oluna bilər. Bununla bağlı qaydalar hazırlanır. Amma gözləmək və rəsmi açıqlamaları gözləmək lazımdır".

*Yaqut Qarayeva deyib ki, toyların pandemiya şəraitində təşkil edilməsi ilə bağlı da qaydalar hazırlanır:*

- Ümumiyyətlə, vətəndaşları narahat edən bir çox məsələlər var. İstər şadlıqlarımız olsun, istərsə də insanların kütləvi toplaşmasına səbəb olan mərasimlərimiz, hamısı müzakirə olunur. Bəlli qaydalar hazırlanır.

> "Bu zəncir işləməlidir. Şadlıq sarayları, mərasim evləri açılsa, hər şey yoluna düşəcək. Nə qədər gəncimiz toy gözləyir, ana-ataların arzusu var. Amma biz insan sağlamlığını hər şeydən üstün tuturuq və qaydalara riayət etməyi özümüzə borc bilirik"

TƏBİB-in açıqlaması isə toy sektorunda əməlli-başlı canlanma yaradıb. Toy etmək istəyən şəxslər indidən növbəyə yazılırlar. Məsələn, "Xəzər TV"-nin bu barədə hazırladığı reportajda şadlıq evləri sahiblərinin necə ümidləndiyini görmək olur. Şadlıq evi sahibi Mahir Zeynalov deyib ki, son günlər açıq havada toy etmək istəyən şəxslərdən xeyli müraciətlər daxil olub. İcazə verildiyi gündən növbəyə uyğun olaraq toyların keçirilməsinə başlayacaqlar. Artıq açıq hava toyları üçün qiymət də müəyyən ediblər. Pandemiyadan əvvəlki vaxtla müqayisədə indiki qiymətlər baha olacaq. Ekspertlər bildirirlər ki, açıq hava toylarının qiymətlərinin yüksək olmasının səbəbi bu ənənənin əvvəllər Azərbaycanda çox zəif olmasıdır. Çünki hazırda Bakıdakı şadlıq evlərinin 80 faizində bu imkan yoxdur. Marketoloq Sabit Məmmədov isə deyib ki, toylara icazənin veriləcəyi xəbəri indiyə qədər toy keçirməyən restoran sahiblərini də hərəkətə keçirib. O hesab edir ki, əgər açıq hava məkanlarının sayı artmasa, bu sektorda sürətli qiymət artımı baş verə bilər. Dekorasiya xərcləri, mümkün say məhdudiyyəti də qiymətə təsir edən amillərdən olacaq. Sabit Məmmədov bildirir ki, açıq hava məkanlarının sayı artdıqca gələcəkdə qiymətlərdə müəyyən qədər enmə müşahidə edilə bilər.

### "Toylara bu şərtlə icazə verilə bilər ki..."

**Millət vəkili Afət Həsənova isə hesab edir ki, karantin qaydalarında yumşalmalara gediləcəksə, insanlarımız daha da diqqətli olmalı və yoluxma sayının artmaması üçün sanitar-gigiyenik şərtlərə, həmçinin tətbiqi nəzərdə tutulan qaydalara mütləq əməl etməlidirlər.** Millət vəkili açıqlamasında qeyd edib ki, yoluxma sayının azalmasının əsas səbəbi ölkə üzrə vaksinasiyanın aparılmasıdır:

- Artıq vurulan vaksinlərin ümumi sayı 2 milyona çatır. Koronavirusa yoluxmanın azalması müəyyən yumşalma tədbirlərinin həyata keçirilməsinə imkan verir. Bildiyiniz kimi TƏBİB rəsmisi də həm açıq havada maskadan istifadə tələbinin aradan qaldırılması, həm də açıq havada toyların keçirilməsi ilə bağlı qaydaların hazırlandığını bildirib. Hər iki qərar cəmiyyətin çoxdan gözlədiyi bir qərardır. Artıq yay mövsümü gəlir və açıq havada maskasız gəzmək insanların sağlamlığı üçün də faydalıdır. Pandemiya səbəbindən belə bir tələbin qoyulması zərurətə çevrilmişdi, ancaq ölkəmizdə virusla bağlı müsbət tendensiyanın əldə edilməsi bu tələbin aradan qaldırılmasına imkan verir. Ancaq maska tələbinin aradan qaldırılması pandemiyanın sona çatması anlamına gəlməməlidir. Eyni zamanda bu o demək deyil ki, insanlar açıq havada biri-birlərinə yaxın məsafədə gəzə bilərlər. Əhali bundan sonra da qaydalara ciddi şəkildə əməl etməlidir ki, virus yenidən artmasın və yenidən qaydalar sərtləşdirilməsin.

*Deputat bildirib ki, toyların keçirilməsinə icazə veriləcəyi ilə bağlı xəbərlər cəmiyyətimiz tərəfindən sevinclə qarşılanıb:*

"Şadlıq saraylarında zalların tutumunun dörddə-biri qədər qonaq sayının olması şərtilə toyların keçirilməsinə icazə verilə bilər. Əlbəttə, bu da olduqca müsbət haldır. Lakin qeyd etdiyim kimi burada da insanların məsuliyyətli davranması vacibdir. Hesab edirəm ki, qaydalara riayət olunub virusun yayılmasına imkan verməməklə və eyni zamanda vaksinasiya prosesində aktiv iştirak etməklə qısa müddət ərzində toyların məhdudiyyətsiz keçirilməsinə nail ola bilərik".

**Azərbaycan Milli Kulinariya Mərkəzinin prezidenti, Əməkdar mədəniyyət işçisi, Tahir Əmiraslanov "Şərq"ə açıqlamasında açıq havada toy mərasimlərinə icazə veriləcəyi təqdirdə bir neçə mühüm şərtə əməl edilməsinin zəruru olduğunu dedi:**

- Birincisi, sadlıq saraylarının bütün işçi personalı COVİD-19-qa qarşı peyvənd olunmalıdır. Bu, ilk növbədə işçilərin sağlamlığı üçün vacibdir. Şadlıq saraylarında 500-ə yaxın işçi olur. Təsəvvür edin ki, bu işçilər həm bir-biriylə, həm də gələn qonaqlarla təmasda, ünsiyyətdə olacaqlar. Ofisiantlar qonaqlara qulluq edəcək. Onların peyvənd olunması, tibbi müayinədən keçməsi mütləq lazımdır. Həm də yaxşı olar ki, bu sektorda çalışanlar üçün vahid, mərkəzləşmiş tibb müəssisəsi müəyyənləşsin, çalışanlar orada müayinə və peyvənd olunsun. Yoxsa ki, hər dəfə işçini ayrı-ayrı müayinələrə göndərsələr, bu, işin pozulmasına səbəb olar. İkincisi, toya dəvət edilmiş qonaqlar məclisə gələndə həkim arayışı təqdim etməlidirlər. Ya peyvənd olunduqları barədə, ya yoluxma barədə. Toy mərasimində iştirak edəcək insanların hamısı koronavirus testindən keçməli və əllərində rəsmi sənəd olmalıdır. Üçüncüsü, şadlıq sarayının rəhbərliyi karantin qaydalarına, sanitar-gigiyenik qaydalara sözsüz əməl etməldiir. Hansı qaydalar əsasında toy məclislərinin keçirilməsinə icazə veriləcəksə, o qaydalara ciddi riayət olunmalıdır. Masalar arası məsafə nə qədər tələb edilirsə, bir masa arxasında neçə nəfərin əyləşə biləcəyi bildirilirsə, bu qaydalara əməl edilməlidir. Dördüncüsü, əgər toylar açıq havada keçiriləcəksə, musiqinin səsinin ətraf ərazidə yaşayanları narahat etməməsinə diqqət edilməli və səs desibli dəqiq müəyyənləşməlidir - səsin hansı yüksəklikdə yayılmasına icazə verilir, bilinməlidir. Çünki şadlıq saraylarında toy məclisləri keçiriləndə ətraf ərazilərdəki sakinlər narazılıq edirdilər. İndi açıq havada toy olacaqsa, görün, səs haralara gedib çıxa bilər?! Masaların düzülüşündə, yeməklərin təqdim olunmasında da açıq hava şəraiti nəzərə alınmalıdır. Toylara icazə verilsə belə, gərək vətəndaşlarımız diqqətli olsunlar, bir qarın yeməkdən ötrü özlərini yandırmasınlar. Ən əsası onu demək istəyirəm ki, toy iki gəncin həyatında özəl gündür. İmkan vermək lazımdır ki, ailə quranlar həmin günü istədikləri kimi keçirsin, istədikləri kimi yaşasın. COVİD-19 göstərdi ki, az adamla da toy etmək olar. Məcburdur ki, toya 500 adam gəlsin?! Gəlinin, bəyin ailə üzvləri, ən yaxın qohumları, dostları, hər iki tərəfdən 10-20 nəfərlə də toy şənliyi keçirmək olar. Başqaları qoy nəmərlərini göndərsinlər. Gənc ailəyə də yardım etmiş olsunlar. Bundan gözəl nə ola bilər?!

**T.Əmiraslanov qeyd etdi ki, toy mərasimlərinin dayandırılması böyük bir sahənin çalışanlarını maddi sıxıntı içində saxlayır, lakin yenə də həyat təhlükəsizliyi öndədir:**

- Toylara icazə verilməsini ən çox biz arzulamalıyıq. Çünki işsiz qalan bizim sahənin adamlarıdır. Düzdür, müğənnilər, rəqqasələr, fotoqraflar, disk hazırlayanlar, gülçülər, toy maşınları kirayəsi ilə məşğul olanlar, dizaynerlər də eyni vəziyyətdədir. Bu sahə həqiqətən də çox böyükdür. Böyük bir təbəqə toyların dayandırılmasından maddi sıxıntı çəkir. Bu zəncir işləməlidir. Şadlıq sarayları, mərasim evləri açılsa, hər şey yoluna düşəcək. Nə qədər gəncimiz toy gözləyir, ana-ataların arzusu var. Amma biz insan sağlamlığını hər şeydən üstün tuturuq və qaydalara riayət etməyi özümüzə borc bilirik. Nə zaman toylara rəsmi icazə veriləcəksə, biz də qollarımızı çırmalayıb işə başlayacağıq.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Daxili auditoriyanın maraqlarına cavab verir

*"İranın Qərblə münasibətlərinin gərginləşməsi silah və müharibə fazasına keçməyəcək"*

İranla Atom Enerjisi üzrə Beynəlxalq Agentlik (AEBA) arasında nüvə proqramı üzrə birgə bəyanatının müddəti 1 aylıq uzadılıb. Bu, İranın Ali Milli Təhlükəsizlik Şurasının bəyanatında öz əksini tapıb.Bəyanatda bildirilir ki, İranın Ali Milli Təhlükəsizlik Şurası Avstriyanın Vyana şəhərində nüvə müzakirələri ilə paralel olaraq İran və AEBA arasında nəzarət məsələlərinin həlli üzrə texniki müzakirələrin davam etdiyini nəzərə alır.

Bəyanatda əlavə olunur ki, İran və AEBA arasında əldə olunan İranın nüvə obyektlərində quraşdırılan nəzarət kameralarının məlumatlarının saxlanılması ilə əlaqədar 3 aylıq razılaşma bu gün (24 may) başa çatır. Bəyanatda əlavə olunur ki, İranın Ali Milli Təhlükəsizlik Şurası İranın mənafeyinin qorunması və sanksiyaların ləğvi üzrə strateji addım qanununa əsasən İran tərəfindən əlavə protokolun icrasının dayandırılması prosesinin davam etdiyini qeyd edir. Qeyd edək ki, Avstriyanın Vyana şəhərində İranla 4+1 qrupu (Rusiya, Çin, Britaniya, Fransa, Almaniya) arasında danışıqlar aparılır.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən politoloq Əhəd Məmmədli qeyd edib ki, zamanla müəyyən sanksiyalar olsa da, yaxın gələcəkdə ABŞ və İran münasibətlərinin nə sülh, nə də ki müharibə fazasına keçməsi gözlənilmir:** "Ümumiyyətlə, son dövrlər demokratlar hakimiyyətdə olduqca şahid oluruq ki, Amerika ilə İran münasibətləri danışıqlar yoluyla gedir. Ancaq Respublikaçılar gəldikdə isə tam əksinə. Təbii ki, Bayden hakimiyyətə gələndən sonra Amerika ilə İranın danışıqlar masasında oturacağı gözlənilirdi. Ümumiyyətlə, İran danışıqlara hazırdır. Çünki neçə illərdir ki, İran nüvə proqramını gücləndirir və atom ölkəsi olmağa çalışır. Ona görə də fikrimcə, İranın Qərblə münasibətlərinin gərginləşməsi silah və müharibə fazasına keçməyəcək". Politoloq hesab edir ki, nə müharibə, nə də ki, sülh münasibəti müəyyən mövqedən İrana sərf edir: "Fikrimcə, bu cür münasibət həm də Qərbə maraqlıdır. Çünki Amerikaya düşmənlər lazımdır ki, o öz hərbi potensialının, ordusunun müxtəlif regionlarda olduğunu öz daxili auditoriyasına göstərsin. Hesab edirəm ki, İranda nə vaxta qədər ki, mövcud rejim var, bu proses belə də davam edəcək. Hazırda isə bu cür vəziyyət həm Amerikanın, həm də İranın daxili auditoriya maraqlarına cavab verir".

**Aynurə Pənahqızı**

# Qərblə Şərq arasında toqquşma gedir

*"Bu qlobal toqquşmalar fonunda Türkiyənin və Rusiyanın güclü olması, bir-birinə ehtiyac duyması lazımdır"*



"Rusiya tərəfindən Azərbaycana Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTM) üzv olmaq tez-tez təklif olunur".

**Bu sözləri "Şərq"ə açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat Xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəyli söyləyib. Onun sözlərinə görə, siyasi və qlobal maraqlar həmişə zamana və ölkələrin milli maraqlarına görə dəyişmədir:** "Təbii ki, bunun kökündə də milli təhlükəsizlik faktorları dayanır. Azərbaycanın hərbi doktrina və təhlükəsizlik aspektini qiymətləndirəndə bilməliyik ki, strateji və hərbi tərəfdaşımız Türkiyədir. İkinci sırada İsrail, Ukrayna və Pakistan var. Bu baxımdan İkinci Qarabağ müharibəsi dönəmində yanımızda kimlərin olması əməkdaşlıq etdiyimiz ölkələrin siyahısı və sıralamasına həlledici təsir göstərdi. Bu, bütövlükdə o deməkdir ki, təhlükəsizlik konsepsiyamızın istiqamətləri adını qeyd etdiyim ölkələrə yönəlikdir. Təbii ki, ölkə başçısının siyasətində iki faktor önə çıxır: Birincisi, təhlükəsizlik, ikincisi isə bölgələrdə investisiya mühitinin yaradılması, yəni sabitliyin təmin olunması.

Rusiya həm Avrasiya İqtisadi Birliyi, həm KTMT, həm də Lavrov səviyyəsində etiraf etdiyi Türk Birliyinə üzv olmaq istəyir. Bunların hamısı keçmiş SSRİ ölkələrinin bir çətir altına yığışması, maraqların uzlaşdırılması məqsədi daşıyır. Bu durum həm Rusiyanın bölgədə hegemonluğunun diktəsinə gətirib çıxarır, həm də Türkiyəni proseslərə cəlb etmək niyyəti daşıyır.

Bəzən belə fikirlər səsləndirəndə qorxurlar ki, Rusiya böyük ölkədir və onunla hansısa bir əməkdaşlıqdan qaçmaq lazımdır. Əslində Azərbaycanla bağlı taleyüklü məsələlərə yönəlik qərarları ölkə Prezidenti verir. Bu günə qədər Azərbaycan dövləti və xalqının əleyhinə hansısa qərarların şahidi olmamışıq. Əksinə, müharibənin zamanlaması belə ölçülüb-biçilmiş və konkret olaraq planlar çərçivəsində həyata keçirilmişdi".

"KTMT-yə tam hüquqlu üzv olmaq isə milli təhlükəsizlik maraqlarımıza qətiyyən cavab vermir"

**Ə.Əlibəyli qeyd edib ki, hazırda Qərblə Şərq arasında toqquşma gedir:** "Bu qlobal toqquşmalar fonunda Türkiyənin və Rusiyanın güclü olması, bir-birinə ehtiyac duyması lazımdır. Türkiyə bizim müttəfiqimizdir, amma gedib Rusiya ilə də kortəbii şəkildə toqquşa bilmərik, çünki qonşu dövlətdir. Azərbaycanla Rusiyanın Ermənistana yönəlik siyasətindəki mövqeləri ortaq şəkildədir və üst-üstə düşür. Yəni iki ölkə arasında əməkdaşlığın hansısa aspektlərini müzakirə etmək olar. Amma Rusiyanın yaratdığı və hegemonluğunda olan qurumlarda Azərbaycan tərəfindən iştirakçılıq mütləq müəyyən səviyyələrdə həyata keçirilməlidir. Burada nəzarətçi statusunun olması da mümkündür. KTMT-yə tam hüquqlu üzv olmaq isə milli təhlükəsizlik maraqlarımıza qətiyyən cavab vermir".

**Yeganə Bayramova**

# Geosiyasi amil Azərbaycanın xeyrinədir

*Zəngəzur dəhlizinə mane olsalar, Laçın dəhlizi də sual altına düşəcək*

"Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanat regiondakı bütün ölkələr üçün real əməkdaşlıq imkanları yaradıb. Söhbət ötən il sentyabrın 27-də başlamış və 44 gün davam etmiş İkinci Qarabağ müharibəsinə son qoymuş bəyanatdan gedir.



Üçtərəfli bəyannamə təkcə hərbi əməliyyatların dayandırılmasını deyil, həm də Cənubi Qafqazda nəqliyyat əlaqələrinin bərpasını nəzərdə tutur. Regionda nəqliyyat əlaqələri Ermənistanın təxminən 30 il idi davam etdirdiyi işğalçı siyasət nəticəsində məhdudlaşıb. Qeyd edim ki, üçtərəfli bəyannamənin 9-cu maddəsi bu əlaqələrin bərpasını nəzərdə tutur. Həmin maddədə qeyd edilir ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa olunmalıdır. Elə həmin maddəyə əsasən, Ermənistan Azərbaycanın qərb bölgəsi ilə Naxçıvan Muxtar Respublikası arasında Zəngəzur dəhlizi vasitəsilə nəqliyyat əlaqəsinə zəmanət verir. Bildiyimiz kimi, ortada iki bəyannamə var. Üç dövlət başçılarının da bu bəyannamələrinin altında konkret imzaları mövcuddur". Bu sözləri "Şərq"ə açıqlamasında politoloq Natiq Miri deyib. Politoloq bildirib ki, bu imzalar nəticəsində həmin dövlətlər öz üzərlərinə konkret öhdəliklər götürüblər: "Ona görə də bəyannamələrin bütün müddəalarının icra olunması mütləqdir. Əks təqdirdə bu yalnız Ermənistanın məsələsi olmayacaq. Bu həm də Rusiyanın çox ciddi şəkildə geosiyasi maraqlarını təhlükəyə atan bir məsələ olacaq. Çünki Qarabağda Rusiyanın hərbi varlığı məhz 10 noyabr bəyannaməsindən sonra irəli gəlib. Əgər bu bəyannamədə olanlar yerinə yetirilməzsə, ölkələrin geosiyasi maraqlarının önə çəkilməsi məsələsi absurd olduğu qədər də mümkünsüz olacaq. Ona görə də Zəngəzur dəhlizinin, yəni nəqliyyat infrastrukturlarının açılması məsələsi mütləqdir. Bu istər Ana Azərbaycanı Naxçıvanla birləşdirəcək Mehridən keçən bir dəhliz olsun, yaxud da ki, alternativ yollardan keçən yeni dəhlizlər, yollar olsun. Ümumiyyətlə, gələcəkdə regionda bütün kommunikasiyaların açılması nəzərdə tutulur. Təbii ki, bu, Ermənistan üçün də böyük perspektiv vəd edir".

*Politoloq vurğulayıb ki, yol infrastrukturları açılandan sonra yeni kommunikasiyaların həyata keçirilməsi və bərpası məsələsinə də baxılacaq:* "Bu məsələdə ümumi Cənubi Qafqaz və regional enerji sisteminin yaradılması, digər kommunikasiya xətlərinin yaradılması məsələsi həyata keçiriləcək ki, bu da ilk növbədə Ermənistanın maraqlarına xidmət edir. Bu məsələ sadəcə Azərbaycanın geosiyasi maraqları üçün deyil. Bütün region ölkələrinin, xüsusilə də Ermənistanın maraqlarına xidmət edən məsələdir. Zəngəzur dəhlizinin açılmasını ləngidən məsələ, sadəcə, Ermənistan daxilində ictimai-siyasi prosesin, seçki öncəsi gərginliklə əlaqəlidir. Bu gün bu məsələlər barədə qərarların verilməsi Nikol Paşinyan üçün müəyyən təhlükələr vəd edir. Çünki müxalifətdə olan qüvvələr bu məsələləri Nikol hakimiyyətinin əleyhinə olaraq istifadə edirlər".

**N.Miri qeyd edib ki, regionda yeni dəhlizlər də yaradıla bilər:** "Fikrimcə, Zəngəzur ərazisindən çəkilə bilən yeni dəhlizlər də yaradıla bilər. Hətta bilavasitə İrəvanı da özünə daxil edən dəhlizlər də ola bilər. Ancaq məsələnin bir də başqa tərəfi var. Əgər həqiqətən də Ermənistan üzərinə götürdüyü öhdəliyi yerinə yetirməsə və Zəngəzur dəhlizi ilə bağlı konkret qərarlar qəbul edib hərəkətə keçməsə, düşünürəm ki, bu, Azərbaycan üçün alternativ qərarları dövriyyə soxacaq. Əgər Zəngəzur dəhlizi açılmasa, o zaman Azərbaycan bu günün özündə işlək olan Laçın dəhlizini qazıya bilər. Çünki Zəngəzur dəhlizi əslində 10 noyabr sənədində Laçın dəhlizinə paralel, kompensasiya olaraq nəzərdə tutulub. Zəngəzur dəhlizi əgər işləmirsə, onda nəyə görə biz Ermənistanla Qarabağı bağlayacaq Laçın dəhlizini yaradırıq? Ayrıca ona bir də dəhliz statusu veririk? Bu, Azərbaycanın maraqlarına işləyən geosiyasi amil deyil. Bu gün Laçın dəhlizi yalnız Ermənistanın və Rusiyanın maraqlarına işləyir. Ancaq Zəngəzur dəhlizinin açılması sual işarəsi altındadır. Bu, məsələnin birinci tərəfi. İkinci bir tərəfi, əgər həqiqətən də Zəngəzur məsələsində sərhədlərin müəyyənləşməsi konkret mexanizmlərlə razılaşdırılmasa, o zaman Azərbaycan mütləq mənada bunu birtərəfli qaydada həyata keçirəcək. Buna görə də düşünürəm ki, Ermənistanın qaçacaq bir yeri yoxdur".

**Aynurə Pənahqızı**

# “Məndən əvvəl Faiqlə İlhamənin münasibəti olub”



## *Flora Kərimova İlhamə Quliyeva ilə aralarındakı “sirr pərdəsi”ni qaldırdı*

Sənət dünyasının ən uzunmüddətli və çox danışılan mövzusu Flora Kərimova və İlhamə Quliyeva arasında yaşanan qalmaqal olub. Hamı onların bu soyuq münasibətlərinin səbəbini bilmək istəyirdi. Şübhəsiz, versiyalarımız var idi. Lakin özlərindən əsl səbəbi eşitməmişdik.

İki xalq artistindən biri indi aramızda yoxdur. Digəri, karifey sənətkar Flora Kərimova isə bizimlədir. O, bir müddət öncə ”Dəyişən cavab” verilişində qonaq olarkən sözügedən məsələyə aydınlıq gətirib, ”sirr pərdəsi”ni qaldırıb, ”Şərq” xəbər verir ki, Flora xanım İ.Quliyevanın əməllərindən danışıb: ”İlhamə yazdırırdı ki, mən oxuya bilmirəm, yaxud da guya qızımı yetimxanadan götürmüşəm. Məni müğənnilər sırasından çıxarmaq istəyirdi, alınmadı. Hətta ailə üzvlərimi də dilə gətirdi. Onlar da məndən yazmağa başladılar.

İkinci həyat yoldaşım Faiq Şəfiyev rəhmətə gedəndə öz evindən yola salındı. Qohumları onu Maştağada dəfn etmək istəyirdilər. Mən razı olmadım. Sükan arxasında oturdum, cənazəni aparmalarına icazə vermədim. Məni İ.Quliyevaya tapşırmışdılar.

Onunla danışmışdılar ki, məni tabut arxasınca getməyə qoymasın. O da çox aktiv davranırdı. Həyat yoldaşımın nəşini yola salanda dedim, Faiq, sənin məzarına təkcə indi gələcəm. Elə də oldu. Övladlarım qəbir üstə gedirdilər. Mən isə Faiqi orada qalmağa qoymadım. Molla demişdi ki, ət sümükdən ayrılmadan yerini dəyişdirmək olmaz. Ona görə bir il gözlədim. Sonra onu anamın yanında dəfn elədim”.

Flora xanım həmçinin həyat yoldaşının qohumlarının və İ.Quliyevanın ona ”qan uddurduğunu” söyləyib: ”Düşünürəm ki, necə dəli olmadım? Camaat yığılanda qışqırıq səsi eşitdim. Gördüm ki, İlhamə yasa gələnləri Faiq olan otaqdan qovur. Sözləşmişdilər ki, evi əlimdən alsınlar. Üstümə bıçaqla gəldilər, divara qısıldım. Orada olanlar aramıza girdilər, bıçaq mənə dəymədi.

İlhamə qohumlarla danışmışdı. Bizim 3 maşınımız var idi. Onları və evi əlimdən almağı qərarlaşdırmışdılar. Polisə yazırdılar ki, guya, kiminsə uşağını öldürmək istəyirəm.

Məndən əvvəl Faiqlə İlhamənin münasibəti olub. Eləcə də birinci həyat yoldaşım İbrahim Süleymanovla əlaqələri vardı. Ondakı qadın qısqançlığı idi.

Səsimdən, qabiliyyətimdən, ağlımdan başqa mənim bəxtimi də qısqanırdı. İlhamə İbrahim bəyin mahnılarını oxuyanda münasibətləri yaranıb. Elə oldu ki, İbrahim də, Faiq də sonra mənimlə ailə qurdular”.

**Samirə Ərəblinski**

## İlhamə Bədəlova məhkəməni qazandı

### Roza Zərgərli təkzib vermək məcburiyyətində qalıb



**Aparıcı İlhamə Bədəlova və müğənni Roza Zərgərlinin məhkəmə işi yekunlaşıb. Qərar İlhamə Bədəlovanın xeyrinə qəbul edilib.**

”Şərq” xəbər verir ki, bu barədə R.Zərgərli danışıb.

O deyib ki, qanunlara tabe olmalıyıq: ”Kanalımızın əməkdaşı İ.Bədəlova ilə ”Maşın realiti şou”da münaqişə yaşandı. Məni məhkəməyə verdi. Birinci dəfə rayon məhkəməsinin qərarı xeyrimə oldu. Sonrakı isə İ.Bədəlovanın lehinə idi. Qərar qüvvəyə mindiyi üçün biz təkzib etməliyik. Bunu da İlhamə xanım ”Azad Azərbaycan” televiziyası vasitəsilə elan etməyimi istəyib. Azərbaycan hüquqi dövlətdir. Məhkəmənin qərarı qüvvəyə mindiyinə görə, razı olmasam da təkzib verməliyəm.

Mən Allahverdiyeva Roza Azərbaycan Respublikasının qanuna tabe olan vətəndaşı kimi, alilik prinsipinə əməl edərək məhkəmənin qərarının icra öhdəliyini öz üzərimə götürürəm. 4 iyun 2018-ci il tarixində ”Maşın realiti şou”sunda canlı yayımda işlətdiyim sözlər: ”Sən sus! Ağır xəstə olan əməkdaşını qovdun, mən isə onu işlə təmin etdim. Səhiyyə işçilərinin adını çəkmə! Qorxmusan ki, bu xəstəlik sənə də keçər” kimi məlumatlar həqiqətə uyğun olmadığına görə təkzib verirəm”.

**Samirə**

## “Professional diplomlu aktyoram"

### Vüqar Əbdülov: ”Amma daha çox meyxanaçı kimi tanınıram”



**”Musiqili meyxana həmişə olub. Dəbdə olmağı yaxşıdır, illərdir var. Bu gün də dinləyicinin istədiyi tərzdə təqdim edirik”.**

”Şərq” xəbər verir ki, bu sözləri ”MTV Azərbaycan”a açıqlamasında meyxanaçı Vüqar Əbdülov deyib. O, bir sıra məsələlərə də aydınlıq gətirib:

”Pandemiya dövründə ”maklerlik” etmirdim, dostlarımın ofisi idi. Mən də qarşısında şəkil çəkdirdim. Yalandan paylaşmışdım ki, keçmişəm bu işə. Amma belə deyil. Öz işimlə məşğulam. Universiteti bitirdikdən sonra aktyor kimi çalışırdım. Əsgərlik vaxtı gəldi, həm də avtomobil qəzasına düşdüm. Bu uzun müddət məni aktyor dostlarımdan, teatrdan ayırdı. Meyxanaya yönəldim. Qazancım da meyxanadan gəldiyi üçün bu işlə məşğul oldum. Sənətimi də sevə-sevə yerinə yetirirəm. Senarilər yazırıq, tamaşalar qururuq. Bir müddət aktyor sənətindən də dərs dedim. Filmlərə də çəkildim. Professional diplomlu aktyoram. Amma daha çox meyxanaçı kimi tanınıram”.

**Samirə**

## “Onu məndən gizlədirlər"

### Şəbnəm Tovuzlu bacısını axtarır



**Müğənni Şəbnəm Tovuzlu ”Onun sirri” verilişinin qonağı olub. O, həyatı ilə bağlı özəl açıqlamalar verib.**

”Şərq”in məlumatına görə, Ş.Tovuzlu bir bacısının olduğunu söyləyib. İfaçı yaxınlarına səslənərək bunları deyib:

”Onu məndən gizlətməyin, belə bir şey varsa deyin. Deyirlər, qohumlardan birinə övladlıq veriblər. Sonra dünyaya mən gəlmişəm. Bir yaşımda anam rəhmətə gedib. Məni də xalam böyüdüb. Bacımı mənə tanıtmırlar. Fikrimcə, o də hər şeydən xəbərsizdir. Lakin hər ikimiz də gerçəkləri bilsək yaxşıdır”.

**Samirə**

# Xalq razılaşmır

## *“Rusiya, Yunanıstan və Fransaya xal vermək biabırçılıqdır”*



"Münsif heyətində Tünzalə Ağayeva qeyrətli bir kişi, ya qadın çıxıb demədi ki, bu nə xaldır?"

Niderlandın Rotterdam şəhərində "Eurovision 2021" mahnı müsabiqəsinin final mərhələsi başa çatıb. Qalib "Zitti E Buoni" mahnısı ilə İtaliyanın Maneskin rok qrupu olub. Tamaşaçıların və münsiflərin səsverməsinin nəticələrinə əsasən, bu qrup 524 bal toplayıb.

Azərbaycanı "Eurovision 2021"in finalında "Mata Hari" mahnısı ilə təmsil edən Samira Əfəndi 65 xal toplayıb və 20-ci yerdə qərarlaşıb.

Bu mahnı müsabiqəsi Azərbaycan üçün qalmaqalsız ötüşməyib. Ona görə ki, münsiflərin digər ölkə iştirakçılarına verdiyi xallar sosial şəbəkələrdə müzakirə doğurub. Əksəriyyət Azərbaycanın münsif heyətinin Rusiyaya, Yunanıstana və Fransaya yüksək xal verməsini kəskin qınayıb.

Qeyd edək ki, münsiflər Rusiyaya 12, Yunanıstana 10, Fransaya isə 4 xalı uyğun görüb.

**Mövzu ilə əlaqəli ”Şərq”ə danışan siyasi analitik Turab Rzayev münsif heyətinin seçimlərinin biabırçılıq olduğunu söyləyib:**

”Əslində dəyərli sənət adamları birgə musiqi zövqlərinə uyğun səs verməlidir. Burada iki faktor da var: şəxsi simpatiya və musiqi keyfiyyəti. Lakin gördük ki, bizim münsiflərin musiqi zövqü yoxdur. Seçdikləri ölkələr nə Azərbaycanda, nə Avropada bəyənildi. Onlar digər jürilərdən yaxşı bal ala bilmədilər. Səsvermədən belə başa düşülür ki, guya, 44 günlük müharibədən çıxan xalqın simpatiyası Rusiyaya, Yunanıstana və Fransayadır?! Bu, Azərbaycan xalqına təhqirdir. Onlar millətimizi tanımırlar, bizdən deyillər, xalqa yaddırlar. Kolonyanın qalıqlarıdırlar. Yadıma gəlir, 2013-cü ildə münsif heyətində Tünzalə Ağayeva da var idi. Həmin jüri musiqi zövqlərinə uyğun qərar vermişdi. İlk dəfə Azərbaycan Rusiyaya 0 xalı uyğun gördü. Hətta Rusiyanın Xarici işlər naziri Sergey Lavrov belə azərbaycanlı həmkarına zəng etmişdi. İndi üzüldüm ki, münsif heyətində Tünzalə Ağayeva qeyrətli bir kişi, ya qadın çıxıb demədi ki, bu nə xaldır? Söyləmədilər ki, həmin səsverməyə görə Azərbaycan xalqı bizim üzümüzə tüpürər. Elə də oldu. Xalq münsiflərin qərarı ilə razılaşmır. O insanlar bizi yox, kolonyanı təmsil edirlər”.

*Xatırladaq ki, münsif heyətinin tərkibində Əməkdar incəsənət xadimi Vaqif Gərayzadə, müğənnilər Sevda Ələkbərzadə, Zamiq Hüseynov və rejissor Fuad Əlişov da olub.*

**Samirə**

# Günel onları təriflədi

"Nadir Qafarzadəni, Mətanət İsgəndərlini bölgələrdə çox sevirlər"



**Aparıcı Günel Həsənzadə (Banu) "Gündən-günə verilişində qonaq olarkən müğənni Nadir Qafarzadədən danışıb.**

"Şərq" xəbər verir ki, o, sənətçi ilə xatirələrindən söz açıb: "Məsəl var ki, insanı tanımaq üçün birgə yola çıxmalısan. Nadirlə səfərimiz var idi. Gördüm ki, necə gözəl ürəyə malikdir. Yol kənarında kəklik otu və sair satan uşaqlar dururdu. Maşını saxlayıb hamısından kəklik otu aldı. Dedi ki, istəmirəm yol qırağında uşaqlar olsun. Həqiqətən Nadir Qafarzadəni, Mətanət İsgəndərlini bölgələrdə çox sevirlər. Hara getsəm, deyirlər ki, toy olsa, Nadiri gətirərdin".

**Samirə**

# Günel Elza Seyidcahanın mahnısını oxumayıb



**Müğənni Günel Zeynalova "ATV maqazin onlarla" verilişinin "33 sual" rubrikasında qonaq olub. Sənətçinin bəstəkar-müğənni Elza Seyidcahan haqda dedikləri gülüş doğurub.**

"Şərq" xəbər verir ki, Günel əməkdar artistin Türkiyəyə getməzdən öncə ona mahnı yazdığını söyləyib: "Elza xanım mənim üçün bir mahnı bəstələmişdi. Sadəcə bir bəndini əzbər bilirəm: "Atam ölüb, anam xəstə, dərmana pulumuz yoxdur.

İnsaf yoxdur heç bir kəsdə,

Evdə unumuz yoxdur".

Sanki hər şeyimi itirmişəm, ortalıqda qalmışam. Belə bir mahnı idi. Dedim başqa bəstə istəyirəm. Qismət belə gətirdi ki, İbrahim Tatlısəs məni Türkiyəyə apardı. Bu mahnını oxumadım. Mən gedəndən sonra Elza xanım hər gün bizə zəng edib mahnını soruşub".

**Samirə**

# Samirə Roterdamdan qayıtdı



**"Eurovision 2021"də Azərbaycanı təmsil edən Samirə Əfəndi Bakıya qayıdıb.**

Müğənni yeni fotosunu İnstaqram hesabında yayımlayıb.

*Qeyd edək ki, Samirə Roterdamda keçirilən yarışmada "Mata Hari" mahnısı ilə çıxış edib. Müsabiqədə İtaliya təmsilçisi "Mineskin" qrupu birinci olub. Samirə 65 xalla müsabiqədə 20-ci yeri tutub.*

## "Əmlak Hərrac Mərkəzi" MMC Təkrar Hərracların Keçirilməsinə Dair Elanlar

Sumqayıt şəhəri üzrə İcra İdarəsinin 19.04.2021-ci il tarixli, 24/44 saylı sifarişi ilə Sumqayıt şəhəri, 9-cu mikrorayonda (köhnə) istifadədə olan 0.078422 ha torpaq sahəsində yerləşən 5/6 nömrəli, 9 mərtəbəli binanın 2-ci girişində, 7-ci mərtəbəsində yerləşən 80,39 kv. m ümumi, 53,13 kv. m yaşayış sahəsindən ibarət 4 otaqlı, 32 nömrəli mənzil və Sumqayıt şəhəri, 9-cu mikrorayonda (köhnə) istifadədə olan 0.11 ha torpaq sahəsində yerləşən 10/11 nömrəli, 9 mərtəbəli binanın 4-cü girişində, 1-ci mərtəbəsində yerləşən 78.74 kv. m ümumi, 53,13 kv. m yaşayış sahəsindən ibarət 4 otaqlı, 56 nömrəli mənzillərə dair 18 may 2021-ci il, saat 15:00-a təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin mənzillər ilkin satış qiyməti olan 100.000 (bir yüz min) manatdan 15% aşağı olmaqla, yəni 85.000 (səksən beş min) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 15 iyun 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 4.250 (dörd min iki yüz əlli) manat miqdarında beh ödənilməlidir. Beh məbləği təkrar hərracın təyin edildiyi günə 1 (bir) iş günü qalanadək hərrac təşkilatının hesabına ödənilməlidir.

**Təkrar hərracda hərrac addımı - 2.000 (iki min) manat.**

---------------------------------------------------------------------------

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 22.04.2021-ci il tarixli, 5166121319/20-15-12 saylı sifarişi ilə Şamaxı rayonu, Çuxuryurd kəndində yerləşən 1,447622 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsinə dair 20 may 2021-ci il tarixi, saat 1500-a təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin torpaq sahəsi ilkin satış qiyməti olan 21.600 (iyirmi bir min altı yüz) manatdan 15% aşağı olmaqla, yəni 18.360 (on səkkiz min üç yüz altmış) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 16 iyun 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 918 (doqquz yüz on səkkiz) manat miqdarında beh ödənilməlidir. Beh məbləği təkrar hərracın təyin edildiyi günə 1 (bir) iş günü qalanadək hərrac təşkilatının hesabına ödənilməlidir.

**Təkrar hərracda hərrac addımı - 500 (beş yüz) manat.**

*QEYD: Yuxarıda göstərilən təkrar hərraclarda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunmalıdır. 1) Fiziki şəxslər- şəxsiyyət vəsiqəsinin surətini və hərracda iştirak etmək üçün ərizə; 2) Hüquqi şəxslər- təsis sənədlərinin surətini və hərracda iştirak etmək üçün ərizə; 3) Behin ödənilməsini təsdiq edən sənəd. Hərracın qalibi tərəfindən əmlakın alış dəyəri ən geci 7 (yeddi) təqvim günü ərzində hərracın sifarişçisi olan aidiyyəti İcra orqanının depozit hesabına ödənilməlidir.*

**Tel: (+99412) 539-47-22 ; (+99455)745-25-56 e-mail: info@e-herrac.com**

**Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC**

## "Əmlak Hərrac Mərkəzi" MMC Təkrar Hərracların Keçirilməsinə Dair Elanlar

Xaçmaz rayon İcra Şöbəsinin 18 may 2021-ci il tarixli, 355/20 saylı sifarişi ilə (daxil olma 20.05.2021) Xaçmaz rayonu, Köhnə-Xaçmaz kəndində yerləşən 0.80 ha, 0.20 ha, 0.10 ha və 0.39 ha kənd təsərrüfatı və Xaçmaz rayonu, Müqtədir qəsəbəsində yerləşən 0.06 ha həyətyanı torpaq sahələri açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 16 iyun 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakların ilkin satış qiyməti (0.80 ha) 20.000 (iyirmi min) manat; (0.20 ha) 12.000 (on iki min) manat; (0.10 ha) 10.000 (on min) manat; (0.39 ha) 24.000 (iyirmi dörd min) manat; (0.06 ha) 3.000 (üç min) manat məbləğindədir. Hərracda iştirak üçün ilkin satış qiymətinin (20.000) 5%-i, yəni 1.000 (bir min); (12.000) 5%-i, yəni 600 (altı yüz); (10.000) 5%-i, yəni 500 (beş yüz); (24.000) 5%-i, yəni 1.200 (bir min iki yüz); (3.000) 5%-i, yəni 150 (bir yüz əlli) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir.

**Hərrac addımı - (20.000) 600 (altı yüz) manat;**

(12.000) 300 (üç yüz) manat;

(10.000) 300 (üç yüz) manat;

(24.000) 500 (beş yüz) manat;

(1.200) 50 (əlli) manat

---------------------------------------------------------------------------

Sumqayıt şəhəri üzrə İcra İdarəsinin 16.05.2021-ci il tarixli, 66/16 saylı sifarişi ilə (daxil olma 21.05.2021) Sumqayıt şəhəri, (köhnə) 9-cu mkr., ev 65, mənzil 22 ünvanında yerləşən 65 m2 ümumi sahədən ibarət, 3 otaqlı mənzil açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 16 iyun 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakın ilkin satış qiyməti 65.000 (altmış beş min) manat məbləğindədir. Hərracda iştirak üçün ilkin satış qiymətinin (65.000) 5%-i, yəni 3.250 (üç min iki yüz əlli) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir.

**Hərrac addımı - 1.000 (bir min) manat**

---------------------------------------------------------------------------

Bakı şəhəri Suraxanı rayon İcra Şöbəsinin 21.05.2021-ci il tarixli, 90969/2021-18-21 saylı sifarişi ilə (daxil olma 21.05.2021) Bakı şəhəri, Suraxanı rayonu, Əmircan qəsəbəsi, Səməd Mənsur küçəsi, ev 2B (yeni qaydalarla: Bakı şəhəri, Suraxanı rayonu, Əmircan qəsəbəsi, Səməd Mənsur küçəsi, ev 6) ünvanda yerləşən fərdi yaşayış evi açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 17 iyun 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakın ilkin satış qiyməti 130.000 (bir yüz otuz min) manat məbləğindədir. Hərracda iştirak üçün ilkin satış qiymətinin (130.000) 5%-i, yəni 6.500 (altı min beş yüz) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir.

**Hərrac addımı - 1.000 (bir min) manat**

*QEYD: Yuxarıda göstərilən hərraclarda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunmalıdır. 1) Fiziki şəxslər- şəxsiyyət vəsiqəsinin surətini və hərracda iştirak etmək üçün ərizə; 2) Hüquqi şəxslər- təsis sənədlərinin surətini və hərracda iştirak etmək üçün ərizə; 3) Behin ödənilməsi haqqında sənəd. Hərracın qalibləri tərəfindən əmlakın dəyəri ən geci 7 (yeddi) təqvim günü ərzində hərracın sifarişçisi olan aidiyyəti İcra orqanının depozit hesabına ödənilməlidir.*

**Tel: (+99412) 539-47-22 ; (+99455)745-25-56 e-mail: info@e-herrac.com**

**Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC**

## "Əmlak Hərrac Mərkəzi" MMC Təkrar Hərracların Keçirilməsinə Dair Elanlar

Şəmkir rayon İcra Şöbəsinin 07.05.2021-ci il tarixli, 139089/2020-121693/21 saylı sifarişi ilə (daxil olma 24.05.2021) çəkisi 23 qram olan bir ədəd qolbağı və bir ədəd tros sep açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 17 iyun 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakların ilkin satış qiyməti ümumilikdə 370 (üç yüz yetmiş) ABŞ dolları məbləğindədir. Hərracda iştirak üçün ilkin satış qiymətinin (370 ABŞ dolları) 10%-i, yəni 37 (otuz yeddi) ABŞ dolları məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir.

**Hərrac addımı - 3 (üç dollar) ABŞ dollar.**

*QEYD: Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunmalıdır. 1) Fiziki şəxslər- şəxsiyyət vəsiqəsinin surətini və hərracda iştirak etmək üçün ərizə; 2) Hüquqi şəxslər- təsis sənədlərinin surətini və hərracda iştirak etmək üçün ərizə; 3) Behin ödənilməsi haqqında sənəd. Hərracın qalibi tərəfindən əmlakın dəyəri ən geci 7 (yeddi) təqvim günü ərzində hərracın sifarişçisi olan aidiyyəti İcra orqanının depozit hesabına ödənilməlidir.*

**Tel: (+99412) 539-47-22 ; (+99455)745-25-56 e-mail: info@e-herrac.com**

**Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC**

# Dünyanın ən ağıllı quşu...

*Bildiklərimiz səhvdir, demə qarğa 15 il yaşayır*



*(Əvvəli səh: 16-da)*

**Qarğamı ağıllıdır, meymunmu?**

Bir qrup elm adamına görə meymunlar deyil, ən ağıllı heyvan qarğalardır. Qarğalar 5-ə qədər saya bilir. Həyatda qalmaq söz mövzusu olduğunda ehtiyaclarını qarşılamaq üçün zəkalarından istifadə edə bilir.

**Qarğaların ömrü nə qədərdir?**

Hamımız qarğaların 100, hətta 200 il yaşadığını zənn edirik, amma səhvdir. Qarğaların ortalama ömürləri 15-20 il arasında dəyişməkdədir. Təbiətdə ortalama 13 il olan ömürləri xüsusi qulluq nəticəsində ən çox 30-40 ilə çatır.

**Qarğalar təhlükəlidirmi?**

Qarğaların insanlara düşmən heyvanlar olduğunu biri çıxarıb və bu mövzu beləcə uzanıb gedir. Əslinə baxılsa qarğalar insanlarla birlikdə yaşamaqdan olduqca məmnundur. İnsanların varlığını üstünlüyə çevirən qarğalar, məsələn, bir yemişin qabığını qıra bilmədiyinə görə onu sıx tıxac olan bir yola buraxmağı və avtomobillərin qabığı qıracağını ağıllarına gətirə bilir.

**Qarğalar yas tuturmu?**

Ölüm fərqliyinin heyvanlar arasında nadir olduğunu bilirik. Qarğalar da ölülərinin arxasından yas tuturlar. Bir doğmaları öləndə başından ayrılmazlar və bir müddət yanında qalarlar. Bu davranışın səbəbi ölümün səbəbini araşdırmaq və anlamaq da ola bilər. Təhlükə yaradan bir vəziyyət varsa, anlamaq və xəbərdarlıq etmə istəyi də onları ölülərinin başında qalmağa itələyir.

**Qarğa nəyin xəbərçisidir?**

"Qarğa nəyin xəbərçisidir" deyə tez-tez suallar veririk. Qarğalar indiki vaxtda ölümü və pis xəbəri işarələyən heyvanlardır. Ancaq Yunan mifologiyasına baxan zaman qarğaların ölümsüzlüyü təmsil etdiyini görməkdəyik. Qarğa Yunan mifologiyasında hörmət edilən bir heyvandır. Eyni şəkildə Skandinav mədəniyyətində də qarğalar haradasa müqəddəs sayılan quşlardır. Tanrı Odinin iki qarğası olduğuna görə, Skandinav mədəniyyətləri qarğaya böyük hörmət edər.

**Turan**

## Xəstələrin gözlərini çıxarırlar!

Koronavirusun daha bir dəhşəti üzə çıxdı

*(Əvvəli səh: 16-da)*



**ABŞ Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzində gələn açıqlamada isə bildirilir ki, bu göbələk xəstəliyi insanlar üçün əsasən təhlükəli deyildir, lakin immuniteti zəifləyən insanlarda ciddi infeksiyalara səbəb ola bilir.**

İnsan bu göbələklərin qoxusunu alarsa, yaxud da hansısa bir nahiyədə kəsik, yanıq varsa, oradan da orqanizmə nüfuz edə bilər. Hindistan Səhiyyə Nazirliyinin yaydığı açıqlamada "burnumuzun arxasındakı hava dəlikləri, göz ilə dişlərin arasındakı dəri infeksiyası olaraq özünü göstərir. Ağ çiyərlərə, beyinə yayıla bilir, burunda qaralmalar, bulanıq görmə, sinədə ağrılar, nəfəsalmada çətinlik və öskürək zamanı qan damlalarının görülməsinə yol aça bilir", deyə xəbərdarlıq edilir.

Hindistan dünyanın diabet paytaxtı hesab edilir. Göbələkləri yayıldığı tropik iqlimə malikdir. Bütün bunlar "qara göbələk" pandemiyasının yayılmasına təsir edən amillərdir. **Nazirlik vətəndaşları vahiməyə düşməməyə çağırıb:** "Zamanında, erkən müalicə şərtdir. İnsanlar vaxtında müalicə alarlarsa, xəstəliyə qalib gələcəklər. Göz əməliyyatları çarəsiz durumda aparılır. Göbələk beyinə qədər nüfuz etməsin deyə".

**Məlahət Rzayeva**

## Azercell yerli kommunikasiya sektorunda Big Data texnologiyalarını tətbiq edən ilk şirkətdir

Azərbaycanın kommunikasiya sektorunda ilk dəfə Big Data texnologiyasını tətbiq edən Azercell Telekom bu sahədə ciddi irəliləyiş əldə edib. Sözügedən texnologiyanın qabaqcıl həllərindən istifadə mobil operatorun rəqəmsal transformasiyasını mümkün edib.

Hazırda Azercell-in hədəfi abunəçilərin tələbatlarını real vaxt rejimində təyin edərək müvafiq təklifi onlara dərhal göndərən modelləri ərsəyə gətirmək, bununla da müştərilərinin həyatını asanlaşdırmaqdır. Məhz buna görə də bu gün Azercell-in istenilən məhsulunun təməlində Big Data analitikası dayanır. Mobil operatorlar üçün sərhədsiz imkanlar yaradan bu texnologiya mövcud məlumat platforması, məlumatların saxlanması və işlənməsi ilə bağlı çətinlikləri aradan qaldırıb. Big Data texnologiyası böyük həcmdə məlumatlara sahib olan Azercell şirkətinə onları real vaxt rejimində dərin analizini aparmağa imkan verir. Bu, həm də dəyişən bazar şəraitinə çevik reaksiya verib, dərhal tövsiyələr irəli sürməyə fürsət yaradır. Qeyd olunmuş imkanlardan yararlanmaq üçün Azercell Big Data texnologiyasına əsaslanan layihəni icra edir. Bu proses özündə texnoloji, analitik və data aktivlərinin idarə olunması üzrə transformasiyanı nəzərdə tutur. Texnoloji transformasiya - yerli kommunikasiya sektorunda ilk dəfə olaraq Big Data texnologiyasının tətbiqini; Analitik transformasiya -maşın öyrənməsi, vizuallaşdırma, real vaxt hesabatları və proqnozlaşdırıcı analiz vasitəsilə təhlil proseslərinin effektivliyinin artırılmasını; Data aktivlərinin idarəedilməsi - korporativ səviyyədə məlumatların idarə olunmasını ehtiva edir. Azercell şirkəti artan məlumat həcmi və analitik ehtiyacları təmin etmək üçün Apache Hadoop, Spark və Kafka kimi "opensource" (açıq mənbə) texnologiyalarına əsaslanan Big Data ekosistemini tətbiq edib. Apache Nifi məlumat toplama platformasının tətbiqi ilə məlumatların işlənməsi imkanlarını artırıb. Eyni zamanda, Big Data platforması korporativ səviyyədə olan verilənlər anbarı platformasına inteqrasiya olunaraq şirkət səviyyəsində birləşdirilib. Azercell SAS və Tableau şirkətlərinin maşın öyrənmə və vizual təhlil platformalarını tətbiq etməklə təhlil imkanlarını daha da təkmilləşdirib. Bu platformaların tətbiqi maşın öyrənməsini, proqnozlaşdırıcı təhlillərin və statistik məlumat modellərinin daha dəqiq və sürətli hazırlanmasını təmin edib. Nəticədə yeni abunə axını (churn) modeli, ikili sim abunə modeli, seqmentasiya modeli və satışın optimallaşdırılması modelləri hazırlanıb. Bu da öz növbəsində müştərilərin dəqiq seqmentlərə bölünməsinə, müştəri axınının qarşısının alınmasına, bazar reallıqlarına daha da uyğun olan məhsul və xidmətlərin hazırlanmasına imkan verib. Hazırlanmış vahid korporativ idarəetmə panelləri real vaxt rejimində bütün şöbələrin maliyyə və biznes göstəricilərini izləməyə imkan verir. Beləliklə, artıq şirkətin fəaliyyətinin monitorinqi xüsusi panellər vasitəsilə onlayn rejimdə həyata keçirilir, real zaman kəsiyində trafik, servislər və digər detallar haqqında məlumatlar əsasında müvafiq qərarlar qəbul olunur. Bunlar dəyişən bazar şəraitinə çevik reaksiya verib, dərhal tövsiyələr irəli sürməyə fürsət yaradır.

İstifadə edilən hazır proqram təminatları ilə yanaşı, Azercell həm də "opensource" proqram təminatları və maşın öyrənmə kitabxanaları ilə, R və Python proqramlaşdırma dillərindən istifadə etməklə yeni modellər hazırlayır. Bu strategiya isə məlumatların əlavə təhlil imkanlarını zənginləşdirir.

Azercell məlumat idarə olunması layihəsi çərçivəsində bu sahədə "Informatica" kimi aparıcı şirkətin proqram təminatından istifadə edir. Bu layihənin icrası məlumatların idarə edilməsinə, əldə olunmasına, təsnifatlaşdırılmasına imkan verəcək.

Big Data texnologiyaları həm şirkətlərə, həm də müştərilərə yararlıdır, belə ki, şirkət öz hədəf auditoriyasını nə qədər yaxşı tanıyırsa, onlar üçün bir o qədər sərfəli təklif hazırlaya və ya daha çox fərdiləşdirilmiş məhsullar təqdim edə bilər. Digər tərəfdən, Big Data texnologiyası daxili qərar qəbuletmə prosesini optimallaşdırmağa və məlumatların işlənmə xərclərini ümumilikdə azaltmağa kömək edir. Bu isə son nəticədə məhsul qiymətlərinin effektivliyi ilə nəticələnir. Big Data daha öncə əlçatan olmayan imkanlardan və daha dəqiq proqnozlaşdırmadan istifadə edərək rəqabət qabiliyyətini artırmağa şərait yaradır. Həmçinin, cəmiyyətin rifahının daha da artırılmasına xidmət edəcək həlləri yaratmaq imkanı verir.


**Elan**

Bakı şəhəri, Xətai rayonu, F.Qəmbərov küçəsi, ev 14, mənzil 25-də yaşayan Salamov Sabir Əhməd oğluna məxsus 01 fevral 2012-ci ildə verilmiş qeydiyyat nömrəli FHN 38-00483 olan, lisenziya nömrəsi 072844, VÖEN 2000515902 itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



Baş redaktor: **Akif Aşırlı**

Baş redaktorun ı müavini: **Yusif Nəzərli**

Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı

**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535 **www.sherg.az** e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı. **Telefon: 447-32-41 538-44-50, internet 538-44-15, İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 927

ŞƏRQ 25 may 2021-ci il № 90 (5371) (çərşənbə axşamı) MARAQLI



# Xüsusi yetişdirilib

2 yemişin qiyməti 2,7 milyon yenə təqdim olundu

**Yaponiyada keçirilən hərracda 2 yemişin qiyməti 2,7 milyon yen olaraq təqdim olunub.**

"Şərq" "Ntv.com"a istinadən xəbər verir ki, indiyə qədər Yaponiyada yemiş üçün ən yüksək təklif 2009-cu ildə 5 milyon yen səviyyəsində olub.

Budəfəki yemişlər də əvvəlkilər kimi xüsusi yetişdirilib. Yemişlər hər il Yaponiyanın Hokkaydo əyalətində yetişdirilən və ölkə daxilində baha qiymətə satılır.

Keçən il isə hərracda yemiş üçün ən yüksək təklif pandemiya səbəbindən 120 min yen olub.

**Yeganə**

# 15 dəqiqə havada qaldı

Uçan avtomobil təqdim olundu



**ABŞ-ın "Lift Aircraft" şirkəti "HEXA" adlı uçan avtomobil təqdim edib.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, uçan avtomobilin idarə olunması üçün pilot lisenziyası tələb olunmur. Uçuşa hazırlıq üçün isə təxminən 1 saat lazımdır. Nəqliyyat vasitəsinin 15 dəqiqə havada qaldığı və 16-24 kilometr məsafəni qət etdiyi bildirilib.

**Aynurə**

# Xəstəlik bu hala saldı

23 yaşlı modelin bir ayağı 45 kiloqramdır



**Mahogany Geterin bir ayağı "lenfödem" deyilən xəstəlik səbəbindən 45 kiloqram ağırlığındadır. Doğulan gündən "lenfödem"lə mübarizə aparan 23 yaşlı Mahogany Geter, görünüşüylə ilgili "cahil" şərhlərə məruz qalır.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, xəstəlik gənc modelin bədəninin yumşaq toxumasında çoxlu mayenin yığılmasına və sol tərəfində şişkinliyə səbəb olub. Amma o bunu özünə dərd etmir, peşəsini müvəffəqiyyətlə icra etməyə fokuslanıb. Mahogany vəziyyətini gizlətmək əvəzinə instagramda fotolarını paylaşaraq bütün dünyayla paylaşmağı seçir. Amerikalı gənc model, eyni zamanda "YouTube"də və digər ictimai platformalarda vəziyyəti haqqında bilgilər verir. O, hazırda xəstəliyinin müalicəsi olmadığı üçün yalnız ağrılarını yüngülləşdirməyə çalışır. 133 kiloqram ağırlığında olan modelin bir ayağı 45 kilodur. Şişkinliyi yenmək üçün nizamlı fizioterapiya və lenfatik drenaj masajlar etdirir: "Həyatımı daha azad yaşamaq istəyirəm və bəzən işlərimi edə bilməyəcəm kimi gəlir" deyən model, sözlərini belə davam etdirir: "Vəziyyətimə nəzarət etməsəm, daha ciddi narahatlıqlar yaşayıram". *Mahogany, çətinliklərinə baxmayaraq yorulmadı və hər addımında onu dəstəkləyən anası Timika ilə moda sənayesində adından danışdırmağa qərarlıdır.*

**Turan**



# Dünyanın ən ağıllı quşu...

*Bildiklərimiz səhvdir, demə qarğa 15 il yaşayır*



**Küçəyə çıxan zaman səsindən və görüntüsündən dərhal tanıdığımız və ən yaxşı bildiyimiz quşlardan biri qarğalardır. Nadir qarğaları bu qədər maraqlı edən? Qarğalar nəyin xəbərçisidir? Gəlin, bu və bunun kimi suallara cavablar axtaraq.**



**Qarğalar nə qədər ağıllıdır?**

Oksford Universiteti tərəfindən aparılan araşdırmalar nəticəsində qarğaların zəkalarından yüksək səviyyədə istifadə etdikləri müşahidə edilib. İncə bir təcrübə balonuna yemək qoyulmuş və qarğaların bu yeməyi necə götürəcəyi müşahidə edilib.

Qarğa masanın üzərində olan yeməyi özünün hazırladığı qarmaqla sahiblənməyi bacarıb. Bu təcrübədə qarğalardan başqa heç bir heyvan müvəffəqiyyətli ola bilməyib.

***Turan***

*(Davamı səh: 15-də)*

# Xəstələrin gözlərini çıxarırlar!

Koronavirusun daha bir dəhşəti üzə çıxdı



**Hindistanda yeni tip koronavirusun "qata göbələk" adlanan göz xəstəliyini artırdığı məlum olub. Bu barədə "Şərq" "CNN Türk"-ə istinadən xəbər verir. Tibb elmində "mukormikoz" adlandırılan, digər adı isə "qara göbələk" olan göz xəstəliyindən artıq 219 nəfərin həyatını itirdiyi bildirilir.**

Gözlərdəki xəstəlik sürətlə yayılaraq beyinə nüfuz etdiyindən həkimlər bir çox xəstələrin gözlərini əməliyyat apararaq çıxarırlar. "Qara göbələk" göz xəstəliyi Hindistanda may ayından etibarən yayılmağa başlayıb. CNN-in yazdığına görə, xəstəliyə tutulanların çoxu koronavirus xəstələri və ya COVİD-19-dan yaxın zamanda müalicə olunaraq sağalanlar, immun sistemi koronavirus təsiri ilə zəifləyənlər və diabetli xəstələrdir. "Qara göbələk" göz xəstəliyi haqqında məlumatlar bundan ibarətdir ki, rütubətli, nəmli torpaqda əmələ gələn kifdən qaynaqlanır və tənəffüs yollarına yayılır. Lakin yoluxucu deyildir, insandan insana keçmir.

*(Davamı səh: 15-də)*

***Məlahət***



# 12 milyon qiyməti var

Di Kaprio Los-Ancelesdə yeni malikanə alıb

**Hollivud ulduzu Leonardo Di Kaprio Los-Ancelesdə yeni malikanə alıb.**

Axşam.az xarici mətbuata istinadən xəbər verir ki, dəyəri 7,1 milyon dollar (təxminən 12 milyon 70 min manat) olan villa Los-Feliz rayonunda yerləşir.

475 kvadrat metr sahəsi olan evdə dörd yataq, dörd vanna, qonaq otağı, böyük mətbəx, idman zalı və hovuz var.

*Verilən məlumata görə, Leonardo özü həmin evdə yaşamaq niyyətində deyil, lakin onu kimin üçün aldığı isə hələlik dəqiqləşdirilməyib.*